QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 180 (5411) 5 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## "Avropa İttifaqı bizim prioritetimizdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edib*

Səh 3



Azərbaycan ilə İtaliya bir çox istiqamətlərdə uğurla əməkdaşlıq edir



2

Spiker: "Azərbaycan Avropa İttifaqı ilə əlaqələrin inkişafına böyük önəm verir"



2

Türkiyə-İran yaxınlaşması - regionda birlik və bərabərliyə doğru atılan növbəti tarixi addım



8

Türkiyə XİN: "Azərbaycanın icazəsi olmadan işğal altındakı torpaqlara səfər etmək beynəlxalq hüquqa ziddir"



9

"Avropa yanlış siyasətinin acı nəticələrini dadır"



9

Ermənistan boşalır -12011 nəfər ölkəni tərk edib



9

12

Azərbaycan dünyanın iqtisadi mərkəzinə çevrilib




14

Əli Kərimli dindarları aksiyaya dəvət etsə də...



16

"Azərbaycanda peşəkar boksçuların yetişməsinə kömək etməyə hazırıq"



# Azərbaycan ilə İtaliya bir çox istiqamətlərdə uğurla əməkdaşlıq edir

## *Prezident İlham Əliyev İtaliyanın “Leonardo” şirkətinin baş icraçı direktorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də İtaliyanın “Leonardo” şirkətinin baş icraçı direktoru Alessandro Profumonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, “Leonardo” şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilk dəfə Bakıda olduğunu, paytaxtımızın gözəlliyinin onda dərin təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Alessandro Profumo bu ilin mayında “Leonardo” şirkətinin baş icraçı direktoru təyin olunduğunu və ilk xarici səfərini Azərbaycana etdiyini vurğulayaraq ölkəmizin İtaliya üçün və eləcə də təmsil etdiyi şirkət üçün böyük əhəmiyyət daşıdığını dedi. Alessandro Profumo “Leonardo” şirkətinin çoxşaxəli fəaliyyət göstərdiyini qeyd edərək ölkəmizdə keçirəcəyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.



Prezident İlham Əliyev Alessandro Profumonu “Leonardo” şirkətinin baş icraçı direktoru təyin olunması münasibətilə təbrik etdi. Dövlətimizin başçısı bu ilin əvvəlində “Leonardo” şirkətinin keçmiş baş icraçı direktoru Mauro Moretti ilə görüşünü xatırlayaraq Alessandro Profumonun ilk xarici səfərini Azərbaycana etməsini ölkəmizə olan marağın yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan ilə İtaliya arasında əlaqələrə toxunan Prezident İlham Əliyev ikitərəfli əməkdaşlığımızın gündəliyinin çox geniş olduğunu, ölkələrimizin bir çox istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, sənaye, ticarət sahələrində uğurlu əməkdaşlıq etdiklərini bildirdi.

Görüş zamanı “Leonardo” şirkəti ilə ölkəmizin bir çox strukturları, o cümlədən Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, SOCAR, Silkway şirkəti arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, kibertəhlükəsizlik sahəsində perspektivlər müzakirə edildi və əməkdaşlığımızın yaxşı potensiala malik olduğu bildirildi.

# Spiker: “Azərbaycan Avropa İttifaqı ilə əlaqələrin inkişafına böyük önəm verir”

***Dünən Milli Məclisin sədri Oqtay Əsədov Avropa İttifaqının (Aİ) Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Aİ Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyəti ilə görüşüb. SİA-nın məlumatına görə, görüşdə O.Əsədov bildirib ki, Azərbaycan Aİ ilə əlaqələrin inkişafına böyük önəm verir. Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan ilə Aİ arasındakı əlaqələr 2009-cu ildən Şərq Tərəfdaşlığı Proqramı əsasında dinamik inkişaf edib. O.Əsədov bildirib ki, əlaqələrin bundan sonrakı inkişafında Aİ ilə imzalanacaq yeni sazişin mühüm rolu olacaq. Spiker qeyd edib ki, Azərbaycan bu sazişin imzalanması üçün əlindən gələni edir.***



Aİ Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Valter Stivens Azərbaycanın dini tolerantlığa rəvac verən bir ölkə olduğunu qeyd edib. O qeyd edib ki, Aİ Azərbaycanla münasibətlərə böyük önəm verir. V.Stivens Azərbaycan ilə Aİ arasında əlaqələrin inkişafını yüksək qiymətləndirib. O bildiriv ki, Avropa İttifaqı və onun qurumları Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır: “Noyabr ayında Brüsseldə Şərq Tərəfdaşlığı Sammiti baş tutacaq. Lakin bundan daha vacib məsələ ondan ibarətdir ki, biz Aİ olaraq Şərq tərəfdaşlarına verdiyimiz önəmi bir daha vurğulamaq istəyirik. Azərbaycanla Aİ arasında yeni sazişin imzalanması ilə bağlı müvafiq danışıqlar davam edir. Ümidvarıq ki, danışıqlar tezliklə və uğurla başa çatacaq”.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli 1186 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Oleq Polumordvinovun və Denis Afanasyevin”Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Sərəncamlar imzalayıb. Sərəncamlarda qeyd edilir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlığın inkişafındakı xidmətlərinə görə Oleq Anatolyeviç Polumordvinov və Denis Aleksandroviç Afanasyev “Tərəqqi” medalı ilə təltif edilsinlər.

***

Prezident İlham Əliyev Şamaxı şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıqquruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# “Avropa İttifaqı bizim prioritetimizdir”

## *Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə giriş nitqi ilə çıxış etdi.***

Prezident İlham Əliyevin giriş nitqi

-Əziz qonaqlar, xoş gəlmisiniz. Düşünürəm ki, bu, Avropa Komissiyasından indiyədək Azərbaycana səfər etmiş ən böyük nümayəndə heyətidir. Şadam ki, bu otaqda kifayət qədər yerimiz var. Bir daha Azərbaycana xoş gəlmisiniz.

Bilirəm, səfəriniz qısadır, lakin ümidvaram ki, çox məhsuldar olacaq. Siz Azərbaycan haqqında daha çox məlumat əldə edəcək, daha çox görəcəksiniz. Əlbəttə ki, uğurlu əməkdaşlığımızı necə davam etdirə biləcəyimizlə bağlı qərara gələcəksiniz. Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Bildiyiniz kimi, bizim cəmi 25 yaşımız var. Bu ay biz müstəqilliyimizin bərpa olunmasının 26-cı ildönümünü qeyd edəcəyik. Lakin düşünürəm ki, bu müddət ərzində biz müxtəlif sahələrdə yaxşı irəliləyişə nail olmuşuq. Bu gün Azərbaycan gələcəyə çox aydın baxışı olan çox sabit, müasir, inkişaf edən ölkədir.

Qarşımızda duran əsas çağırışlardan biri, - mən söhbətimizə bu mövzu ilə başlamaq istərdim, - əlbəttə ki, artıq 25 ildən çoxdur davam edən Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Əslində bu, Sovet İttifaqının süqutu ərəfəsində başlayıb və Sovet İttifaqı dağılandan dərhal sonra Ermənistan və digər xarici qüvvələrin dəstəyi ilə Dağlıq Qarabağdakı erməni separatçıları bəşəriyyətə qarşı cinayət törətdilər. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə apardılar və bir milyondan artıq azərbaycanlı məcburi köçkün və qaçqına çevrildi. Onlar Dağlıq Qarabağı tamamilə işğal etdilər, orada olan 30 faizə yaxın Azərbaycan əhalisini qovdular və ermənilərin heç vaxt yaşamadığı Dağlıq Qarabağ ətrafındakı 7 rayonu işğal etdilər. Bundan əlavə, bu işğal nəticəsində Ermənistanda yaşayan 250 min azərbaycanlı da etnik təmizləməyə məruz qaldı. Bir milyon nəfər. Həmin vaxt Azərbaycanın əhalisi 8 milyondan bir qədər artıq idi. Bu, adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayına görə ən yüksək rəqəmlərdən biri idi.

İşğal olunmuş ərazilərdəki vəziyyət beynəlxalq ictimaiyyətə məlumdur. ATƏT işğal olunmuş torpaqlara iki dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyaları göndərib və onların hesabatlarında həmin torpaqlarda vandalizm aktlarının törədildiyi göstərilib. Bütün binalar, məzarlar və qəbiristanlıqlar, məscidlər ermənilər tərəfindən dağıdılıb. Onlar Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədərək 613 günahsız insanı qətlə yetirdilər. Onların 100-dən çoxu qadın, 60-dan çoxu uşaq idi. Onlar bizim tarixi və dini abidələrimizi dağıdaraq mədəni irsimizə qarşı soyqırımı törətdilər. Vəziyyət belədir.

Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar heç bir praktiki nəticə əldə olunmadan uzun illərdir davam edir. Ermənistan status-kvonu dəyişməz olaraq saxlamağa çalışır. Münaqişənin həll olunmamasının əsas səbəbi budur. Bundan əlavə, Ermənistan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, erməni qoşunlarının işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrə əməl etmir. Əfsuslar olsun ki, bu qətnamələr kağız üzərində qalır. Bəzən bir neçə gün ərzində yerinə yetirilən bəzi başqa qətnamələrdən fərqli olaraq, bizə gəlincə, biz onların yerinə yetirilməsini 20 ildən artıqdır, daha dəqiq desək 24 ildir ki, gözləyirik. Status-kvo qəbuledilməzdir. Bunu təkcə Azərbaycan deyil, həm də ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələr deyir. Bu ölkələrin prezidentləri bir neçə dəfə bəyan ediblər ki, status-kvo dəyişdirilməlidir, bu, qəbuledilməzdir. Ermənistan buna sadəcə olaraq göz yumur və status-kvonu dəyişməz olaraq saxlamaq üçün əlindən gələni edir. Onlara qarşı beynəlxalq səviyyədə təzyiq artanda, onlar 2014-cü ildə olduğu kimi, təmas xəttində hərbi təxribatlara başlayırlar. Onlar hərbi helikopterlərlə bizim mövqelərimizə hücum edəndə və biz cavab vermək məcburiyyətində qalanda bu, bütünlükdə 2015-ci il ərzində danışıqların dondurulmasına səbəb oldu. 2016-cı ildə təzyiq yenidən artmağa başlayanda onlar kəndlərimizi atəşə tutmağa başladılar və 6 mülki şəxsi qətlə yetirdilər, 20-dən artıq adam yaralandı və biz yenə də cavab verməli olduq. Cavab çox ciddi və effektiv oldu. Biz ərazilərimizin mühüm hissəsini azad etməyə müvəffəq olduq. Ermənilər yenə də bunu bəhanə edərək bizi təcavüzdə günahlandırdılar və danışıqlara yenidən başlamaq üçün şərtlər irəli sürməyə başladılar. Sözsüz ki, Azərbaycan bu şərtlərin heç birini qəbul etmədi. Ermənilər bizim bunu heç vaxt qəbul etməyəcəyimizi yəqin ki, başa düşürlər. Bu, ola bilsin ki, onlar üçün məlum səbəblərə görə daha bir vaxt qazanmaq fürsəti idi. Beləliklə, 2016-cı ildə, ilin ikinci yarısında və 2017-ci ildə danışıqlarla bağlı vəziyyət bir növ dondurulmuşdur. Onların taktikası status-kvonu bacardıqları qədər dəyişməz saxlamaqdır. Hazırda onlar regionun keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qondarma “Dağlıq Qarabağ respublikası”nın bir hissəsi kimi təqdim olunduğu yeni xəritələrini tərtib edirlər. Bu, onların münaqişənin sülh yolu ilə həllində maraqlı olmadığını göstərir. Bizim mövqeyimiz çox aydın və sadədir, dəfələrlə ifadə olunub. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Tarix bu faktı təsdiqləyir. Dağlıq Qarabağ Azərbaycanın qanuni hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Biz tarixən bizə məxsus olan torpaqlarda ikinci qondarma erməni dövlətinin yaradılmasına razılıq verməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməli, Ermənistanın işğalçı qüvvələri işğal olunmuş bütün ərazilərdən qeyd-şərtsiz çıxarılmalıdır. Sonra sülh olacaq və vəziyyət sabit hesab ediləcək.

Bu gün bu münaqişənin mövcudluğu regional təhlükəsizliyə və sabitliyə daimi təhlükədir. Beləliklə, görüşümüzün əvvəlində sizə əvvələ nə baş verdiyi və nə etməklə bağlı fikirlərimi təqdim etmək istədim. Düşünürəm ki, qarşıdakı ayda Minsk qrupunun əsas fəaliyyət sahəsi, - yəqin ki, onların regiona səfər etməyi planlaşdırdığını bilirsiniz, - beynəlxalq hüquq normalarına əməl etməsi üçün Ermənistanın işğalçı rejiminə daha çox təzyiq göstərmək olmalıdır. Münaqişənin həll olunmamasının səbəblərindən biri də təcavüzkara qarşı beynəlxalq səviyyədə təzyiqin olmamasıdır. Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, beynəlxalq hüquq normalarını və humanitar normaları kobud şəkildə pozan ölkəyə qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı. Beynəlxalq ictimaiyyətin Ermənistana münasibətdə bu cür mülayim siyasəti onlarda belə təsəvvür yaradır ki, onlar bizim torpaqlarımızda qanunsuz şəkildə qalmağa davam edə bilərlər və bu, səbəblərdən biridir. Lakin düşünürəm onlar başa düşməlidirlər ki, bu, mümkün olmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mənim buna şübhəm yoxdur. Məsələ burasındadır ki, biz bunu sülh yolu ilə etmək istəyirik.

İnkişafımız və problemlərimizlə bağlı digər məsələlərə gəlincə, demək istərdim ki, münaqişə, dağıntılar və iqtisadi çətinliklərə baxmayaraq, ölkə inkişaf etməyə müvəffəq olub. Biz on milyardlarla birbaşa xarici sərmayə cəlb etmişik, Azərbaycanda yaxşı investisiya mühiti yaratmışıq, iqtisadiyyatımızı müasirləşdirmişik, əsasən infrastruktur və insan kapitalına sərmayə yatırmışıq. Düşünürəm ki, bu gün Azərbaycan iqtisadi cəhətdən sovet keçmişindən, planlaşdırılan iqtisadiyyatdan müasir sistemə və bazar iqtisadiyyatına keçən ölkə kimi yaxşı nümunələrdən biridir. İqtisadiyyatımızın 80 faizdən çoxu özəl sektorun payına düşür. Biz işsizlik, yoxsulluq kimi əsas, çox ciddi sosial problemləri həll etməyə müvəffəq olmuşuq. Hazırda yoxsulluq və işsizlik səviyyəsi 5-6 faizə yaxındır. Düşünürəm ki, bu, dünya miqyasında ən yaxşı göstəricilərdən biridir. Biz əsasən təhsilə sərmayələr yatırırıq. Çünki əminik ki, yalnız təhsilli və təlim keçmiş insanlar uzunmüddətli inkişafı təmin edə bilərlər. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Biz səhiyyə sahəsinə böyük sərmayələr yatırırıq. Son 15 ildə 600-dən artıq müasir xəstəxana tikilib və yenidən qurulub. Hazırda hər il 5 milyondan artıq adam, əhalimizin yarısı pulsuz tibbi müayinədən keçir. Bu, insanların sağlam qalmasına kömək edir.

Bizim iqtisadi göstəricilərimiz Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi beynəlxalq təşkilatlar tərəfindən aparılan qiymətləndirmələrdə də əks olunub. Onların bizim islahatlarla bağlı qiymətləndirmələri çox müsbətdir. Əlavə olaraq, Davos İqtisadi Forumunun son dəfə dərc etdiyi iqtisadiyyatın rəqabət qabiliyyəti üzrə yeni hesabatda Azərbaycan iqtisadiyyatın qlobal rəqabət qabiliyyəti indeksində 35-ci yerdə qərarlaşıb. Axırıncı dəfə biz 37-ci yerdə idik, indi isə 35-ci yerdəyik. Biz MDB ölkələri arasında birinciyik və 140 ölkə arasında 35-ci olmaq həqiqətən də böyük uğurdur. Bu, bizim dediklərimiz deyil. Bu, Davosun dedikləridir. Azərbaycanın iqtisadiyyatı uğurla inkişaf edir. Biz qeyri-enerji sektoruna böyük diqqət yetiririk. Bu il ixracatın artımı 20-30 faiz təşkil edir, kənd təsərrüfatı sahəsində ixrac artımı isə 50 faizdən çoxdur. Beləliklə, iqtisadiyyatın şaxələnməsi artıq bir reallıqdır. Buna görə də neftin qiymətinin çevik düşməsinin bizə müəyyən problemlər yaratmasına baxmayaraq, çox qısa müddətdə biz bu problemlərin öhdəsindən gələ bildik. Əlbəttə ki, Azərbaycan böyük enerji ehtiyatları olan ölkə kimi tanınır və bu ehtiyatları dünya bazarlarına nəql etmək üçün əsasən sərmayələr yatırır. Bu gün Avropa İttifaqının üzvü olan bəzi ölkələr üçün enerji balansında bizim neftimiz təqribən 25-30 faiz təşkil edir. Beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında biz öz rolumuzu oynayırıq. Bu yaxınlarda aparıcı beynəlxalq enerji şirkətlərinin konsorsiumu ilə yeni meqaneft müqaviləsi imzalanıb. Bu müqavilə bizə nəhəng neft yataqlarımızın 2050-ci ilə qədər işlənməsinə imkan verəcək. Sabit neft istehsalat profilini saxlamaq üçün on milyardlarla əlavə investisiyalar yatırılacaq. Əlbəttə ki, Azərbaycandan təbii qazın Avropa bazarlarına nəql edilməsi layihəsi hazırda Avropanın enerji gündəliyində duran ən vacib məsələlərdəndir və biz Avropa Komissiyası ilə sıx əməkdaşlıq şəraitində bu məsələ üzərində çalışırıq. Azərbaycan “Cənub Qaz Dəhlizi” layihəsinin işlənilməsində aparıcı qüvvə olub. Bu gün bu layihəyə 7 ölkə qoşulub. Bunlar Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Bir neçə Balkan ölkəsi də artıq bu layihəyə qoşulmaq niyyətindədir. Minimum təbii qaz ehtiyatları 2,6 trilyon kubmetr təşkil edir. Bu, böyük rəqəmdir və bu rəqəm artacaq. Çünki biz hazırda yeni nəhəng qaz yataqlarının kəşfiyyat işlərini aparırıq. Ona görə, bu, böyük bir ehtiyatdır. Biz Azərbaycanı qeyd etdiyim ölkələr vasitəsilə Avropa, İtaliya ilə birləşdirən boru xəttinin inşasını aparırıq. Boru xəttinin uzunluğu 3500 kilometrdir və bu xəttin inşaat işləri də uğurla gedir. Ümid edirik ki, gələn il birinci faza olacaq və 2020-ci ildə layihə tamamlanacaq. Bu layihənin dəyəri ən azından 40 milyard ABŞ dolları təşkil edir və Azərbaycan “Cənub Qaz Dəhlizi” layihəsində fəal investor qismində çıxış edir və öz töhfəsini verir. Bizim toplanılmış maliyyə ehtiyatlarımız istənilən layihəni həyata keçirmək üçün kifayət edir, hazırda 40 milyard dollardan da artıqdır. Bizim çox kiçik xarici borcumuz var və bu, ümumi daxili məhsulun 20 faizindən daha da azdır.

**Ardı Səh. 4**

# "Avropa İttifaqı bizim prioritetimizdir"

*Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edib*





Əvvəli Səh. 3

Buna görə də biz beynəlxalq maliyyələşməni cəlb etməkdə heç bir problem yaşamırıq. Bizim etdiklərimiz isə əsasən "Cənub Qaz Dəhlizi" layihəsi ilə əlaqəli məqsədlər üçündür.

Digər infrastruktur layihələri və yerli səviyyədə həyata keçirdiyimiz layihələr üçün biz dövlət büdcəsinin vəsaitlərindən istifadə edirik. Buna görə də iqtisadiyyat və enerji təhlükəsizliyi nöqteyi-nəzərindən, əlbəttə ki, Azərbaycanın gələcəyi daha da yaxşı olacaq. Bununla bağlı mənim heç bir şübhəm yoxdur.

Qeyd etmək istədiyim digər məsələ isə nəqliyyatdır. Bu sahə təkcə bizim üçün önəm kəsb etmir. Enerji resurslarının işlənilməsi kimi layihələrdə nəqliyyat sahəsində regional və ya qitə səviyyəsində əməkdaşlıq olmasa, heç bir uğur qazanmaq olmaz. Buna görə də bizim hədəfimiz Azərbaycanı vacib regional nəqliyyat mərkəzinə çevirməkdir. Bu məqsədlə biz keçmişdə artıq böyük sərmayələr yatırmışıq. Biz ölkəmizi qonşu ölkələrlə birləşdirən bütün magistrallarımızı müasirləşdirmişik. Biz altı beynəlxalq hava limanını inşa etmişik və həm sərnişindaşıma, həm də yükdaşımalar üçün təyyarə parkımızı yeniləmişik. Biz dəmir yolu infrastrukturunun fəal modernləşdirilməsi mərhələsindəyik. Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması var, 300-ə yaxın gəmimiz var. Bakıda bütün növ gəmiləri inşa edə bilən müasir gəmiqayırma zavodumuz var və biz faktiki olaraq bu işləri görürük. Gələn il biz Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanını istismara verəcəyik. Bu limanın maksimum yükqəbuletmə, yükgöndərmə tutumu ildə 25 milyon ton olacaq. Bütün bu işlər qonşularımız, yaxın qonşularımız və o qədər də yaxın olmayan qonşularımızla əlaqə yaratmaq üçün görülür. Şərq-Qərb Nəqliyyat Dəhlizi çox tezliklə fəaliyyət göstərəcək. Bu, Xəzər dənizindən, Azərbaycandan keçən, Asiyadan Avropaya gedən bir yoldur və bu, Asiyadan Avropaya ən qısa nəqliyyat yolu olacaq. Digər bir yol isə Cənubdan Şimala, yaxud Cənubdan Qərbə doğru gedir və bu yol da Azərbaycan ərazisindən keçir və Azərbaycan buraya da sərmayə yatırıb. Bu, əlbəttə ki, bizə qeyri-neft sektorundan gələcəkdə daha çox pul qazanmaq imkanı verəcək. Bu, ölkənin geosiyasi əhəmiyyətini artıracaq. Çünki dənizə çıxışı olmayan, açıq bazarlara, açıq dənizlərə çıxışı olmayan ölkə olaraq və eyni zamanda, dəmir yolları, hava ilə yükdaşımaları, magistral daşımalar və dəniz daşımalarından ibarət inteqrasiya edilmiş bir sistem olan nəqliyyat mərkəzini yaratmaq, hesab edirəm ki, həqiqətən də böyük bir aktivdir.

Avropa İttifaqı ilə əməkdaşlığımızla bağlı sonuncu bir məsələni də qeyd etmək istəyirəm. Bu ilin fevral ayında mənim Brüsselə çox uğurlu səfərim oldu. Səfərdən bir gün sonra biz Avropa İttifaqı və Azərbaycan arasında yeni saziş üzərində rəsmi danışıqlara başladıq. Məndə olan məlumata görə, danışıqlar uğurla davam edir. Bizdə danışıqları gec olmaqdansa, daha tez yekunlaşdırmaq istəyi var və biz Avropa İttifaqı ilə münasibətlərdə yeni bir səhifənin açılışını etmək istəyirik. Avropa bizim əsas ticarət tərəfdaşımızdır və bizim Avropa ilə ənənəvi əlaqələrimiz var. XIX əsrdə Azərbaycana Avropa kapitalı sərmayə qoyulmuşdu və Azərbaycanda Avropa mədəniyyətinin mədəni irsi var. Bu da müsəlman dünyasında Azərbaycanda ilk baletin səhnəyə qoyulması, ilk teatrın yaradılması, habelə 1918-ci ildə ilk demokratik respublikanın yaradılması faktında öz əksini tapır. Bütün bunlara əsasən Avropanın təsiri olub. Respublika yalnız iki il müddətində fəaliyyət göstərdi, sonra bizi müstəqillikdən məhrum etdilər. Lakin o iki il müddətində Azərbaycan xalqı müasirliyə, modernləşməyə doğru irəlilədiyini nümayiş etdirdi. Həmin vaxtın ən vacib nailiyyətlərindən biri qadınlara bir çox Avropa ölkələri ilə müqayisədə daha erkən səsvermə hüququnun verilməsi idi. Buna görə də Avropa irsi həmişə Azərbaycanda mövcud olub və indi təhlükəsizlik, siyasi inkişaf, ticarət, enerji, nəqliyyat, multikulturalizm kimi bütün vacib məsələləri özündə ehtiva edəcək yeni sazişlə biz Avropa İttifaqı ilə münasibətlərin uğurla inkişaf edəcəyinə ümid edirik. Bu arada biz vaxt itirmədik, biz Avropa İttifaqına üzv ölkələrlə ikitərəfli formatda fəal çalışdıq və indi Azərbaycanın Avropa İttifaqına üzv olan ölkələrin üçdəbirindən çoxu ilə strateji tərəfdaşlıq formatı var, ya saziş, ya bəyannamə formasında. Beləliklə, biz Avropa İttifaqına üzv ölkələrin üçdəbirindən çoxu üçün strateji tərəfdaş hesab olunuruq. Hesab edirəm ki, bu, Avropa İttifaqı və Azərbaycan arasında gələcək saziş üçün yaxşı zəmindir və bayaq qeyd etdiyim kimi, mənim Brüsselə uğurlu səfərimdən çoxlu gözləntilərimiz var və nəticələr çox yaxşı idi. Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Valter Stivens çıxış edib:

-Cənab Prezident, həvəsləndirici sözlərə görə çox sağ olun. Bizi qəbul etmək üçün ayırdığınız vaxta və göstərilmiş qonaqpərvərliyə görə də minnətdarıq. Haqlı olaraq, qeyd etdiyiniz kimi, bu, ola bilsin, qəbul etdiyiniz ən böyük nümayəndə heyətidir. Əslində, biz 28 ölkənin səfirlərindən ibarət qrupuq. Biz faktiki olaraq, Avropa İttifaqı və nazirlər üçün xarici siyasətin əsaslandırılması ilə məşğuluq. Qeyd etməliyəm ki, mən burada 2006-cı ildə olmuşam və həmin vaxt, ATƏT-in fəaliyyətdə olan sədri Karel de Quxt ilə gəlmişdim. İndi isə yenidən qayıtmışam və görürəm ki, ölkədə çox böyük dəyişikliklər baş verib. Bu, kifayət qədər sevindiricidir.

Bildirməliyəm ki, biz bu səfərə böyük əhəmiyyət veririk. Fikrimcə, səfər yerinə düşəndir, çünki Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq gedir. Eyni zamanda, biz Şərq Tərəfdaşlığına, xüsusən də Azərbaycana əhəmiyyət veririk. Siz də bunu haqlı olaraq qeyd etdiniz.

Brüsselə səfərinizdən sonra əlaqələrimizdə kifayət dərəcədə dinamik inkişaf baş verib. Hazırda yeni saziş üzrə danışıqlar gedir. Danışıqların artıq bir neçə raundu keçirilib. Fikrimcə, onlar çox yaxşı istiqamətdə davam edir. Ümid edirik ki, yaxın zamanlarda danışıqlar başa çatacaq. 1996-cı il tarixli "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" əvvəlki saziş üzərində də böyük iş gedir. Bir daha qeyd edirəm ki, münasibətlər təbii olaraq həmin əsaslarla, o cümlədən Şərq Tərəfdaşlığı ilə tənzimlənir. Sizi Şərq Tərəfdaşlığı Sammiti münasibətilə Brüsseldə böyük məmnuniyyətlə salamlamağı arzulayırıq. Fikrimcə, bu yeni saziş sayəsində irəliləyişlə ola bilsin ki, biz aviasiya haqqında saziş barədə də danışıqlar apara bilərik. Bu, Zirvə görüşü üçün çox yaxşı nəticə sayıla bilərdi və göstərərdi ki, bizim Azərbaycanla əlaqələrimiz nə dərəcədə yaxın və sıxdır. Bildirməliyəm ki, Sizin qeyd etdiyiniz regional hadisələr baxımından Azərbaycan beynəlxalq arenada çox mühüm müstəqil iştirakçıdır. Mənə elə gəlir ki, bu məsələlər gələcəkdə işləyə biləcəyimiz xarici siyasətin, eləcə də təhlükəsizliyin də mühüm sahəsidir.

Siz, həmçinin tolerantlıq mədəniyyəti məsələsini qeyd etdiniz. Dini tolerantlığa gəldikdə, müxtəlif dinlər burada yan-yana mövcud olublar. Bu, gözəl nümunədir. Eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsinə və ölkənin müasirləşdirilməsinə yönəlmiş səylərinizi də xüsusi olaraq qeyd etdiniz. Ölkədə uzunmüddətli artım və sabitlik perspektivlərini təmin etmək olduqca vacibdir. Siz, həmçinin təhsil sahəsində də çox işlərin görüldüyünü, qeyd olunmuş məsələlərin reallaşması üçün cəmiyyətin bütün təbəqələrinin səfərbər olunduğunu söylədiniz. Eyni zamanda, investorların üzünə açıq olduğunuzu, xarici investisiyalara yol açan sərmayə mühitinə diqqət yetirdiyinizi bildirdiniz. Fikrimcə, sərmayədarlar üçün hüquqi əsasları və qanunun aliliyini də təmin etmək vacibdir. Bu halda, onlar da gözlənilən fəaliyyətdə şəffaf olurlar.

Bu baxımdan, icazə verin narahatlıq doğuran bəzi məsələləri də qeyd edim. Söhbət ölkədə ifadə azadlığı, toplaşmaq azadlığından gedir. Müəyyən şəxslərin azadlıqdan məhrum olunması ilə bağlı bəzi məlum işlər var. Bilirəm ki, Siz penitensiar sistemin humanistləşdirilməsi sahəsində də bir çox işlər görürsünüz. Ümid edirəm ki, təklifləriniz də parlamentdə razılaşdırılacaq və qəbul olunacaq. Fikrimcə, bunu Avropa Şurasının üzvü kimi göstərmək vacibdir. Həmçinin nəzərə alsaq ki, bu cür məsələlərin həlli ilə bağlı Avropa Məhkəməsinin qərarı da var. Həmin addım bizə də yardımçı ola bilərdi, çünki biz münasibətlərimizin genişləndirilməsində, vətəndaş cəmiyyəti ilə işləməyimizdə və ikitərəfli əlaqələrimizin inkişaf etdirilməsində çox maraqlıyıq.

Dağlıq Qarabağa gəldikdə, fikrimcə, siz Ermənistan prezidenti ilə Brüsseldə olduğunuz zaman prezident Tusk fikrini çox aydın şəkildə qeyd etdi. Biz çox istərdik ki, status-kvo deyil, siyasi nizamlanma tapılsın. Həmsədrləri bu baxımdan tam dəstəkləyirik. Siz də qeyd etdiyiniz kimi, mən də bilirəm ki, həmsədrlər regiona səfərə gəlir. Bilirəm ki, prezidentlər arasında da görüşün keçirilməsi plandadır. Bəlkə də bu məsələni bir az aydınlaşdırardınız. Bu baxımdan, bəlkə yaxşı olardı ki, fransalı həmkarıma da söz verim.

***

Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Fransadan olan səfiri Nokalas Suran çıxış edib:

-Cənab Prezident, icazə versəydiniz, mən qısa olaraq üç məsələni qeyd etmək istərdim. Birincisi, Dağlıq Qarabağla bağlıdır. Bildiyiniz kimi, sentyabrın əvvəlində burada olmuş xarici məsələlər üzrə dövlət katibi tərəfindən bəyan edilmişdir ki, danışıqların indiki durumu və təmas xəttində baş verən silahlı toqquşmalar bizi çox narahat edir. Biz də Siz düşündüyünüz kimi, hesab edirik ki, status-kvo qəbuledilməzdir və biz mütləq siyasi nizamlanmaya nail olmalıyıq. Məqsədimiz çox aydındır: beynəlxalq hüququn prinsiplərinə, xüsusən də hamımız üçün sarsılmaz olan Helsinki Yekun Aktına uyğun şəkildə məsələnin həllinə nail olmaq. Yəni, bildiyimiz kimi, güclə təhdid etməmək və ya ondan istifadə etməmək, dövlətlərin tam ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmək həmin Aktın prinsipləridir.

Ardı Səh. 5

# "Avropa İttifaqı bizim prioritetimizdir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edib*

Əvvəli Səh. 4

Bu baxımdan, tərəflər arasında ən yaxşı həll variantının tapılmasında qərəzsiz olmaqda Minsk qrupunun həmsədri kimi bizə arxalana bilərsiniz.

Bilirik ki, BMT-nin Baş Assambleyasının sessiyası zamanı xarici işlər nazirləri sentyabrın 23-də görüş keçirdilər. Gördük ki, Minsk qrupu həmsədrlərinin bəyanatında qeyd olunub ki, bu ilin sonuna qədər görüşün keçirilməsi mümkündür. Bildiyiniz kimi, Prezident Makron şəxsən bəyan etdi ki, biz sizə məsələnin həllinin tapılmasında kömək etməyə hazırıq. Sədrimiz Avropa İttifaqının tam siyasi dəstəyini vurğuladı. Fikrimcə, həmsədrlərin irəli sürdüyü təşəbbüslər üzərində işin aparılması çox vacibdir. Bu baxımdan, biz güclü siyasi dialoq apardığınız Avropa İttifaqı ilə tam yekdilik. Bir daha bizim üçün ən vacib olan odur ki, danışıqlar tezliklə bərpa olunsun, çünki bu, çox vacibdir və yekun nəticədə, bölgədə və əlbəttə, onun xalqları üçün sabitlik və təhlükəsizliyi təmin edə bilər.

Dağlıq Qarabağla bağlı sonuncu məsələni də qeyd edim. Çünki bunu kifayət qədər vacib hesab edirəm. Hazırda biz Şərq Tərəfdaşlığı Sammitinin yekun bəyannaməsinin razılaşdırılması mərhələsindəyik. Əlbəttə, biz regionda münaqişələr barədə müddəanı kənarda qoymayacağıq. Bu, çox vacibdir. Hesab edirik ki, bəyannamə mümkün qədər bitərəf olmalıdır və beləliklə, bütün tərəflərin maraqlarına cavab verən güzəştlər əsasında sənəd tərtib ediləcək. Bu, olduqca vacib məsələdir. Çox qısa olaraq, iki digər məqamı da qeyd edim. Birincisi, Sizi əmin etmək istərdik ki, bu məsələ Azərbaycan və Avropa İttifaqının bütün üzv dövlətləri üçün qarşılıqlı maraq doğurur. Söhbət enerji sektorundan, xüsusən də Cənub Qaz Dəhlizinə verdiyimiz dəstəkdən gedir. Bilirik ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, o cümlədən Azərbaycanın hakimiyyət orqanları bu işdə çox mühüm rol oynayır. Avropa İnvestisiya Bankından ayrılan kreditlərə, eləcə də Avropa İttifaqında enerji mənbələrinin və təchizatın şaxələndirilməsində açılan imkanlara gəldikdə, Siz bizə arxalana bilərsiniz.

Nəhayət, sonuncu məqamı bildirim. Siz də bunu çox düzgün olaraq qeyd etdiniz. Söhbət Azərbaycanın multikulturalizm sahəsindəki fəaliyyətindən gedir. Azərbaycan və Avropa İttifaqının üzləşdiyi ümumi çağırışla, yəni, terrorçuluğa qarşı mübarizə ilə bağlı fikirlərinizi öyrənmək mənim üçün maraqlı olardı. Biz terrorçuluğun mövcud olduğu regiondayıq. Cənubda Suriya, İraq hadisələri baş verir. Bilirik ki, bizim, o cümlədən Sizin bəzi vətəndaşlarınız xaricdə döyüş əməliyyatlarına qoşulur. Bu barədə bir az fikirlərinizi öyrənmək, problem haqqında, edə biləcəyimiz əməkdaşlıq barədə nə düşündüyünüzü bilmək bizim üçün maraqlı olardı. Çox sağ olun.

***

Daha sonra Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Bolqarıstandan olan səfiri Gergana Karadjova çıxış edib:

-Cənab Prezident, bizi qəbul etdiyinizə görə minnətdarıq. Siyasi və Təhlükəsizlik Məsələləri Komitəsində Bolqarıstanın təmsilçisi və həmkarlarım üçün Sizinlə görüşməkdən böyük məmnunluq və şərəf hissi duyuruq.

Azərbaycanın yerləşdiyi region iki məqam baxımından bizim üçün çox vacibdir. Birincisi, Qara dəniz və Xəzər dənizi bölgəsində sabitlik, təhlükəsizlik və demokratiya məsələləri ilə bağlıdır. İkinci məqam isə fransız həmkarım və Sizin də qeyd etdiyiniz kimi, enerji və nəqliyyat dəhlizlərini nəzərdə tutur. Həqiqətən, Cənub Qaz Dəhlizi çox mühüm marşrutdur. Biz enerji mənbələrinin və təchizat yollarının şaxələndirilməsi üzərində birgə çalışırıq. Bu baxımdan, Azərbaycanın oynadığı aparıcı rolu alqışlayırıq. Həmin layihənin başa çatdırılması mənim ölkəm və Avropa İttifaqının enerji təhlükəsizliyi üçün olduqca əhəmiyyətlidir. Siz də qeyd etdiniz ki, 2020-ci ildən başlayaraq bu marşrutla enerji daşıyıcılarının nəqlinin reallaşması vacibdir. Körfəz ölkələrindən Qara dəniz regionuna multimodal daşımalar marşrutu da çox əhəmiyyətlidir. Bu baxımdan, Asiyadan Avropaya marşrutun qurulmasında geosiyasi çağırışların üstünlüklərə çevrilməsi məqsədəuyğundur. Əlbəttə ki, enerji məsələsi Avropa İttifaqının gündəliyində əsas yer tutur. Sədrimiz də qeyd etdi ki, Azərbaycanla münasibətlərimiz təkcə bununla məhdudlaşmalı deyil. Biz Avropa İttifaqı ilə yeni əhatəli sazişin razılaşdırılmasını çox alqışlayırıq. Ümid edirəm ki, sazişin mətni tezliklə yekunlaşdırılacaq. Siz bir sıra ölkələrlə strateji tərəfdaşlıq sazişlərini qeyd etdiniz. Mənim də ölkəm onların sırasındadır və həmin münasibətləri yaradıb. Fransalı həmkarımın sualından irəli gələrək, regional konteksti, mühüm qonşularınızın və tərəfdaşlarınızın, xüsusən də İranın və Türkiyənin regional siyasəti barədə daha ətraflı danışsanız, Sizə minnətdar olardım. Sağ olun.

***

Daha sonra Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Almaniyadan olan səfiri Mixael Flüger çıxış edib:

-Cənab Prezident, bizi burada qəbul etdiyinizə görə təşəkkür edirəm. Ölkənizlə qurduğumuz diplomatik münasibətlərin 25-ci ildönümündən çox məmnunuq. Əlbəttə ki, gözlərimiz Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinə yönəlib. Mən sadəcə sədrimizin söylədiyini bir daha təkrar etmək istərdim. Çox istərdik ki, Siz də orada olasınız. Altı ölkənin əhalisi üçün Şərq Tərəfdaşlığının faydalı olması barədə işarə vermək, eləcə də nəinki iqtisadi əməkdaşlığın yaxşılaşdırılması, o cümlədən terrorçuluğa qarşı mübarizə barədə daha ətraflı danışmaq, praktiki xarici siyasət sahəsində əməkdaşlıq etmək baxımından Azərbaycanın yüksək səviyyədə təmsil olunması zəruridir. Bütün bunlar bizim marağımızdadır.

Bir məsələni də qeyd etmək istərdim. Siz bunu artıq açıqladınız. Azərbaycan Demokratik Respublikasının 100-cü ildönümü qarşıdadır. Bu, müsəlman Şərqində həmin dövrdə çox müasir və dünyəvi respublika idi. Məlumdur ki, bizim ölkələrimizdə qadınlara səsvermə hüququ ondan xeyli gec verilib. Bu münasibətlə Sizi təbrik edirik.

Əvvəldə qeyd edilən tolerantlıq məsələsinə gəldikdə, ümid edirik ki, bu, bir məsələyə də tətbiq olunsun. Hazırda vətəndaş cəmiyyətindən eşidirik ki, cinsi və gender mənsubiyyətinə görə ayrı-seçkilik halları baş verir. Bilirik ki, həbs olunmuş həmin şəxslərin əksəriyyəti artıq azadlığa buraxılıb. Bu, yaxşı işarədir. Əminik ki, Azərbaycan BMT, ATƏT və Avropa Şurası çərçivəsində öz beynəlxalq öhdəliklərini yerinə yetirəcək.

Bir böyük xahiş də var. Fikrimizcə, Avropa Şurasından çıxmaq ideyası həm Avropa Şurası, həm Azərbaycan üçün olduqca pis ideyadır. Ümid edirik ki, Siz burada işarə verəsiniz və bu mövqe barədə yenidən düşünəsiniz. Hesab edirik ki, bütün bunlar Azərbaycana beynəlxalq arenada öz potensialını tam şəkildə reallaşdırmaq imkanı verəcək. Biz birmənalı olaraq istərdik ki, Azərbaycan təşkilatda qalsın. Ərazi bütövlüyü ilə bağlı sual da vermək istərdim. Ukraynada ərazi bütövlüyü məsələsi ilə bağlı mövqeyinizi öyrənmək istərdik. Sağ olun.

***

Dövlətimizin başçısı görüşdə yekun nitqi söylədi.

Prezident İlham Əliyevin yekun nitqi

-Əvvəlcə ölkəmizin inkişafının qiymətləndirilməsinə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Siz qeyd etdiniz ki, son dəfə burada 2006-cı ildə olmusunuz. O zamandan bəri çoxlu dəyişikliklər olub. Bu isə onun göstəricisidir ki, ölkə sürətlə inkişaf edir. Bu, təkcə Bakıya aid deyil, biz Azərbaycanın bütün bölgələrində sakinlər və biznes dairələri üçün maksimum imkanların yaradılması məqsədilə nəhəng infrastruktur və inkişaf layihələri həyata keçirmişik. Hazırda vəziyyət elədir ki, regionlar çox uğurla inkişaf edir. İqtisadiyyatımızın şaxələndirilməsi əsasən regional infrastrukturun yaradılması və regional inkişafın təmin olunması sayəsində mümkün olub. Bu sahəyə böyük sərmayə yönəldilib. Mən prezidentlik müddətimin əvvəlində - 2004-cü ildə demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Biz o vaxtdan təhsil və səhiyyə infrastrukturuna böyük sərmayə yatırmışıq. Qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi sahəsində müvafiq işlər görülüb, onların 250 min nəfəri yeni ev və mənzillərlə təmin olunub və bu proses davam etməkdədir. Onların bir hissəsi hələ də çətin vəziyyətdə yaşayır, lakin siz də anlayırsınız ki, bu, böyük vəsait tələb edən layihələrdir. Biz həmin insanların daha yaxşı şəraitdə yaşamaları üçün milyardlarla dollar sərf etmişik.

Burada Fransa səfiri Dağlıq Qarabağ məsələsinə toxundu. Bizə belə gəlir ki, Ermənistan danışıqlar prosesinə qayıdır və bu, olduqca vacib məsələdir. Onların danışıqları boykot etmək siyasəti birincisi ağılsız, ikincisi isə səmərəsiz idi. Bildiyimə görə, Ermənistan rəhbərliyinə müxtəlif mənbələrdən, o cümlədən Avropadan mesajlar verilib ki, bu ölkə özünü belə apara bilməz. Onlar əraziləri işğal etməklə yanaşı, etnik təmizləmə aparıb və işğal olunmuş əraziləri viran ediblər. Bütün bunlardan sonra onlar danışıqların bərpası üçün hələ şərtlər də irəli sürürlər. Ancaq bu gün hesab edirəm ki, danışıqlar formatı bərpa olunmaqdadır. Bir neçə gündən sonra mən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin səfirləri ilə görüşəcəyəm və biz gələcək danışıqları, habelə prezidentlər səviyyəsində mümkün görüşü müzakirə edəcəyik. Münaqişəyə yanaşma məsələsinə gəldikdə, xüsusilə də Şərq Tərəfdaşlığı Zirvə görüşü zamanı bizim gözləntimiz ondan ibarətdir ki, postsovet məkanında mövcud olan bütün münaqişələrə münasibətdə Avropa Komissiyası tərəfindən vahid yanaşma nümayiş etdirilsin. Əks təqdirdə, biz haqlı olaraq bunu ikili standartlar yanaşması kimi qəbul edəcəyik. Bu səbəbdən, Dağlıq Qarabağla bağlı yekun bəyannamənin mətnində ərazi bütövlüyünə dair məsələnin aydın ifadə olunması çox vacibdir. Ümumilikdə isə bütün beynəlxalq formatlarda belə məsələlər müzakirə edilərkən bizim mövqeyimiz ondan ibarətdir ki, bütün münaqişələrlə bağlı vahid yanaşma olmalıdır. Bütün ölkələrin ərazi bütövlüyü məsələsinə gəldikdə, biz hər bir dövlətin ərazi bütövlüyünü tanıyırıq və bu mövqe tərəfimizdən BMT Baş Assambleyasında və Avropa Şurasında keçirilən səsvermələrdə açıq ifadə olunur. Bu, bizim üçün sual deyil, biz istənilən ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşırıq. Bundan əlavə, hesab edirik ki, ölkənin rəhbərliyinin və xalqının razılığı olmadan onun sərhədləri dəyişdirilə bilməz. Bu gün biz İspaniyada və İraqda nələrin baş verdiyini görürük və nəhayət ki, beynəlxalq ictimaiyyət separatizmlə bağlı məsələlərə daha çox diqqət ayırmağa başlayır. Çünki separatizm böyük təhlükədir. Hesab edirəm ki, ərazi bütövlüyü və öz müqəddəratının təyin edilməsi arasında tarazlığı müəyyən etmək çox asandır. Helsinki Yekun Aktına nəzər salsaq görərik ki, burada hər şey aydın ifadə olunub. Ermənistan isə hər iki prinsipin bərabər hüquqa malik olduğunu iddia edərək, ictimai rəyi manipulyasiya etməyə çalışır. Öz müqəddəratının müəyyən edilməsi ərazi bütövlüyünü pozmamalıdır. Dağlıq Qarabağın gələcəyi məsələsinə gəldikdə isə bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, gələcəkdə azərbaycanlılar Dağlıq Qarabağa, öz əzəli torpaqlarına geri dönməli, ermənilər isə onlarla birlikdə Dağlıq Qarabağda yaşamalıdırlar.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bunu siz də qeyd etdiniz və bu, məlum məsələdir ki, bizim ölkədə dini və etnik tolerantlıq yüksək səviyyədədir. Biz multikulturalizmin mərkəzlərindən biri kimi tanınırıq və ötən il Azərbaycanda "Multikulturalizm İli" elan edilib. Bütün etnik və dini qrupların nümayəndələri Azərbaycanda sülh şəraitində, bir ailə kimi yaşayır və hesab edirəm ki, bu, bizim uğurlu inkişafımızın vacib elementidir. Yeri gəlmişkən, düşünürəm ki, bu məsələ müzakirələrin bir hissəsi olmalı və sazişə daxil edilməlidir. Azərbaycan Avropa ilə müsəlman dünyası arasında coğrafi körpü rolu ilə yanaşı, mədəni və müəyyən dərəcədə siyasi körpü rolunu oynayır. 2008-ci ildə biz "Bakı prosesi"nə start verdik. Həmin il biz Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin iclasına İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin müvafiq nazirlərini dəvət etdik. İlk dəfə idi ki, 100-dən artıq dövlətin nümayəndəsi bir araya gəldi və artıq bu gün o, "Bakı prosesi" adlanır. Həmin proses inkişaf etməkdə davam edir və BMT tərəfindən dəstəklənir. Müasir, dünyəvi müsəlman ölkəsi kimi Azərbaycanın rolu artır və deyərdim ki, ölkəmizdə cəmiyyətin dünyəvilik statusunun dəstəklənməsi üçün gördüyümüz işlər təkcə bizim üçün deyil, region üçün də olduqca əhəmiyyətlidir.

Beynəlxalq terrorizmlə bağlı məsələlərə gəldikdə, bir qədər əvvəl qeyd etdiklərim bununla bilavasitə əlaqəlidir. Bizim mövqeyimiz ondan ibarətdir ki, beynəlxalq terrorizmlə mübarizədə yalnız hərbi vasitələrlə uğur qazanmaq mümkünsüzdür. Çünki əvvəlcə ideoloji təhlükələrdən qorunmaq lazımdır. İnsanları qane edəcək yaşayış standartları və rahatlıq təmin olunmalıdır ki, onlar həyatlarından məmnun olsunlar. Onlar təhsil almalıdırlar. Qeyd etdiyim kimi, Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır.

Azərbaycanda getdikcə daha çox savadlı gənclər müxtəlif mühüm vəzifələrdə çalışırlar. Yəni, bu, ekstremizmə qarşı əsas səddir. Terrorizm prosesin son mərhələsidir. Manipulyasiya, savadsızlıq, təbliğat, narazılıq, sosial qeyri-bərabərlik, yoxsulluq, işsizlik və nəhayət, terrorizm. Yəni, bütün bu amillər aradan qaldırılmalıdır. İşsizlik bizdə 5 faiz təşkil edir. Əslində, bundan da az ola bilər, ancaq bəziləri işləməyərək yalnız dövlətdən ianə almaq istəyir. Biz yoxsulluğu demək olar ki, aradan qaldırmışıq. Çünki 2003-cü ildə bu göstərici 49 faizə bərabər idi, indi isə 6 faizdir. Bir məsələni də nəzərə almaq lazımdır ki, Ermənistandan fərqli olaraq əhalimizin sayı artır. Orada əhali azalmaqdadır. Əhalimiz ildə 100 min nəfərdən artıq çoxalır. Bu səbəbdən işsizliyin aşağı səviyyədə saxlanılması olduqca ciddi çağırışdır. Təbii ki, biz terrorizmlə mübarizə sahəsində beynəlxalq səylərə töhfəmizi veririk. Bu mənada, bizim ölkədə daxili təhlükə mövcud deyil. Bütün təhlükələr xaricdən qaynaqlanır.

Ardı Səh. 6

# “Avropa İttifaqı bizim prioritetimizdir”

## *Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edib*

Əvvəli Səh. 5



Bolqarıstan səfiri enerji və nəqliyyat məsələlərini qeyd etdi. Bolqarıstan enerji sahəsinin inkişafında bizim yaxşı tərəfdaşımızdır. Ümid edirəm ki, Bolqarıstan üç ildən sonra Azərbaycan qazını qəbul edəcək. Çıxışımın əvvəlində də qeyd etdiyim kimi, Azərbaycanda enerji sahəsinin inkişafı sərhədlərimizin hüdudları ilə məhdudlaşmır. Enerji təhlükəsizliyimizə gəldikdə, bütün işlər görülüb, biz müxtəlif istiqamətlərdə neft, qaz və elektrik enerjisi ixrac edirik. Bizim 7 kəmərimiz var. Onların 3-ü ilə neft nəql olunur - ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Qaz kəmərlərinin sayı dördə bərabərdir ki, onlar vasitəsilə biz bütün istiqamətlərə - Gürcüstan, Türkiyə, İran və Rusiyaya qaz nəql edə bilirik. Sonuncu ən böyük qaz kəməri Bakıdan İtaliyaya qədər uzanan kəmərdir ki, onun da tikintisi davam edir. Müasir nəqliyyat infrastrukturunun yaradılması üçün tərəfimizdən bütün işlər görülüb. Bizim ehtiyatlarımız məlumdur, bazar müəyyən edilib. Bizim üçün ən böyük bazar Avropadır və Avropanın daha çox qaza ehtiyacı olacaq. Biz bilirik ki, Avropada təbii qaza tələbat artacaq və Azərbaycan Avropa üçün yegane yeni enerji mənbəyidir. Avropanı hazırda qazla təmin edən bütün digər mənbələr istifadə olunmaqdadır. Azərbaycan yeni mənbədir, yaxında yerləşir, ehtiyatlar böyükdür və növbəti onilliklərə kifayət edəcək potensiala malikdir. Biz Avropa Komissiyası ilə sıx əməkdaşlıq edirik. Artıq üçüncü dəfədir ilin əvvəlində biz Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısını keçiririk ki, həmin iclaslarda Avropa Komissiyasının vitse-prezidentləri iştirak edirlər.

Azərbaycanda azadlıqların təmin olunması və demokratiyanın inkişafı məsələsinə gəldikdə, mən hər zaman həmkarlarımız və dostlarımıza məsələnin mahiyyətinə nəzər salmağı tövsiyə edirəm. Azərbaycan medianın kəskin hücumuna məruz qalmaqdadır. Bizim inkişafımıza sevinməyən və ya Azərbaycanda hökmranlıq etmək arzusunda olan müəyyən dairələr ölkəmizi gözdən salmağa çalışırlar. Onu totalitar, avtoritar, hüquqların tapdalandığı və azadlıqların pozulduğu bir ölkə kimi göstərməyə cəhd edirlər. Bu, bir tendensiyadır. Mən Prezident seçildiyim gündən bu tendensiya bizim hökuməti müşayiət edir. Bunun müxtəlif səbəbləri var. Bunlardan biri erməni lobbisi və diasporudur ki, o, Qərbdə böyük siyasi, ictimai və media köklərinə malikdir. Qarayaxmanın böyük hissəsi onların payına düşür, ancaq təkcə onlar deyil. Müəyyən QHT-lər, bizdən istədiklərini əldə edə bilməyən müəyyən xarici dairələr və Azərbaycanın müstəqil siyasət yürütməsindən, başqalarının işlərinə qarışmamasından və başqalarının da bizim daxili işlərimizə qarışmasına imkan verməməsindən narazı olanlar da bu siyahıdadır. Burada müəyyən digər amillər də ola bilər, ancaq əsas məsələ ondan ibarətdir ki, bizə qarşı böhtan və dezinformasiya kampaniyası aparılır. Lakin mahiyyətə baxsanız görərsiniz ki, Azərbaycan demokratik ölkədir, biz 2001-ci ildən Avropa Şurasının üzvüyük, qanunvericiliyimiz demək olar ki, yüz faiz Avropa standartlarına uyğundur. Azərbaycanda bütün azadlıqlar təmin olunur, əhalimizin 70 faizindən çoxu internet istifadəçisidir və dövlət hər bir şəhər və qəsəbəyə genişzolaqlı internetin çəkilməsi sahəsinə sərmayə yatırır - yəni, mətbuat azadlığının tərəfimizdən məhdudlaşdırılmasından söhbət gedə bilməz və bizim belə bir niyyətimiz yoxdur. Əks təqdirdə, biz bütün bu işləri görməzdik. Daha bir azadlıq toplaşma azadlığıdır. Bu azadlıq tam təmin olunur, heç bir məhdudiyyət tətbiq edilmir və müxalifət müntəzəm surətdə mitinqlərini keçirir. Həmin mitinqlərdə min nəfərə yaxın insanın iştirakı isə digər bir məsələdir. Bunlar əsasən partiyaların üzvləri və onların qohumlarıdır. Yəni, bu mitinqlər normal, adi vətəndaşları cəlb etmir və burada bizim günahımız yoxdur. Həmin mitinqlər şəhərin mərkəzində, metro stansiyasının yaxınlığında keçirilir, heç bir məhdudiyyət qoyulmur və sonuncu mitinq isə, zənnimcə, bir həftə əvvəl baş tutub. Beləliklə, hər hansı bir azadlığın məhdudlaşdırılması ilə bağlı niyyət və əməldən söhbət gedə bilməz. Həbslərə gəldikdə, onlar hər bir ölkədə baş verir. Polis zorakılığına dair deyə bilərəm ki, siz Azərbaycanda onun şahidi ola bilməzsiniz, çünki o, mövcud deyil. Bəzən biz sizin təmsil etdiyiniz ölkələrdə polis zorakılığını görürük. Ancaq heç kəs sizi demokratiyanın olmamasında və zorakılıqda ittiham etmir. Biz itlərin dinc etirazçılara hücum etmələri səhnələrini yaxşı xatırlayırıq. Atlardan və dəyənəklərdən istifadə olunmasını biz televizordan izləyirik. Yəni, bu baxımdan da yanaşma obyektiv və vahid olmalıdır. Azərbaycan etmədiyi əməllərə görə gözdən salınmamalıdır. Eyni zamanda, demokratiyanın rəmzi hesab olunan dövlətlərin hərəkətləri normal qəbul edildiyi halda, biz atdığımız bənzər addımlara görə tənqidə məruz qalmamalıyıq. Ancaq şübhəsiz ki, insan haqları və demokratik inkişafla bağlı məsələlər bizim Avropa Komissiyası ilə sazişimizin tərkib hissəsi olacaq.

Burada Avropa Şurasından çıxmaq məsələsinə toxunuldu. Siz bizim kütləvi informasiya vasitələrimizi yaxşı tanıyırsınız, çünki hər hansı bir azərbaycanlı rəsminin belə bir fikir bildirməsi ilə bağlı məndə məlumat yoxdur. Lakin media azaddır və istədiklərini yaza bilər. Təbii ki, biz ictimaiyyətin əhval-ruhiyyəsinə reaksiya veririk və hər bir hökumət, ilk olaraq, ictimai rəyi nəzərə almalıdır. Təəssüf ki, Avropa Şurası ilə bağlı ictimai rəy o qədər də müsbət deyil. Bunun bir neçə səbəbi var. Birincisi, bu təşkilata üzv olarkən bizim gözləntimiz ondan ibarət idi ki, o, bizə Dağlıq Qarabağ münaqişəsinin həllində yardım edəcək. Lakin Avropa Şurası bu işdə uğursuz oldu, bu iş baş tutmadı və baş tutmayacaq da. İkincisi, üzvlüyümüzün əvvəlində mən bizim nümayəndə heyətinin ilk rəhbəri olmuşam. O zaman mən Azərbaycan parlamentinin üzvü idim və 2001-2003-cü illərdə Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinə rəhbərlik etmişəm. Yəni, onun necə təşkilat olmasını mən bilirəm və orada Azərbaycana qarşı münasibətin də necə olduğundan xəbərdaram. Münasibət olduqca mənfi idi. Biz həmin təşkilata Ermənistanla eyni gündə üzv olmuşuq və biz Azərbaycana qarşı kəskin mənfi münasibətlə Ermənistana olan müsbət münasibəti müqayisə edirdik. Seçkilərin daim saxtalaşdırıldığı, siyasətçilərin parlamentdə qətlə yetirildiyi, terrorizmin dəmək olar ki, rəsmi siyasət səviyyəsində qəbul edildiyi, digər dövlətin ərazisini işğal etmiş və hərbi cinayətlər törətməklə milyonlarla insana əzab verən Ermənistan AŞPA-dakı lobbi qrupları tərəfindən hər zaman himayə olunur, Azərbaycan isə hər zaman hücumlara məruz qalırdı. Təəssüf ki, son vaxtlar Avropa Şurasının bəzi rəsmiləri Azərbaycana qarşı yeni hücum təşkil ediblər. Onlar bizi üzvlükdən məhrum etmək və bizə qarşı sanksiya tətbiq etməklə hədələyirlər. Təbii ki, bizim siyasətçilər, parlamentarilər, jurnalistlər və insanlar adekvat reaksiya nümayiş etdirirlər. Birincisi, onlar üzv ölkələrlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin 10 mindən artıq qərarının icrasını təmin etsinlər. Ondan sonra Azərbaycanın üzvlükdən çıxarılmasından və ya sanksiyalardan bəhs edə bilərlər. Bu, baş vermiş olsa, bu hal ikili standartların təntənəsi olacaq. Müxtəlif səbəblərdən Avropa Məhkəməsinin 10 min qərarının icra edilmədiyi bir halda Azərbaycan o qərarları icra edir, lazım gəldikdə təzminat ödəyir və ümumilikdə, olduqca konstruktiv davranır. Beləliklə də Azərbaycana qarşı məqsədyönlü hücum məyusluq yaradır və “bizim o təşkilatda nə işimiz var kimi” fikirlər meydana gəlir. Belə fikirlərin üstünlük təşkil etməməsi üçün biz konstruktiv qaydada çalışmalıyıq. Hesab edirəm ki, bunun yollarından biri bizim Avropa Komissiyası və Avropa İttifaqı ilə əlaqələrimizin möhkəmləndirilməsidir. Bizim üçün prioritet budur. Biz artıq 16 ildir ki, Avropa Şurasının üzvüyük. Sizə səmimi, dostcasına deyim ki, Azərbaycan Avropa Şurasını tərk etsə, heç kəs buna əhəmiyyət verməyəcək. Həyatımızda heç nə dəyişməyəcək, biz bundan sonra nə yaxşı, nə də pis, nə zəngin, nə də yoxsul yaşamayacağıq. İnsan haqları və demokratiya bundan sonra da diqqət mərkəzimizdə olacaq. Biz bunları hazırda Azərbaycana qarşı həyata keçirilən əsassız hücumun mərkəzində dayanan Avropa Şurasının baş katibinə xoş gəlsin deyə etmirik. Biz bunları ölkəmizi inkişaf etdirmək məqsədilə edirik.

Avropa təsisatlarına gəldikdə, bir daha qeyd etmək istəyirəm, Avropa İttifaqı bizim prioritetimizdir və sizin də səfəriniz onu nümayiş etdirir ki, Azərbaycan da Avropa üçün vacib tərəfdaş hesab olunur.

Mən Şərq Tərəfdaşlığı Sammitində iştirak üçün dəvətə görə minnətdaram. Mən bu dəvəti prezident Tuskdan fevral ayında aldım və bildirdim ki, birmənalı olaraq, Zirvə görüşündə iştirak edəcəyəm. Fikrimcə, orada olmaq çox vacibdir. Azərbaycan lap əvvəldən “Şərq Tərəfdaşlığı” proqramına dəstək verdi. Mən şəxsən Şərq Tərəfdaşlığının ilk Sammitində olmuşam və bütün həmin sammitlərdə iştirak etmişəm, sonuncunu istisna etməklə. Orada olmamağımın da səbəbini yəqin ki, bilirsiniz. İndi isə həmin mühüm toplantını kənara qoymaq üçün əsas yoxdur. Bir sözlə, onun üçün ümidlərimiz böyükdür. Eyni zamanda, lap əvvəldən razılaşmamağım onunla bağlı idi ki, üzv dövlətlərə daha fərdi yanaşma tətbiq edilməlidir, çünki həmin ölkələr fərqlidir. Biz Azərbaycanıq. Biz geniş imkanlara malik, müasir, öz hesabına yaşayan, siyasi, təhlükəsizlik, iqtisadi və maliyyə resursları baxımından özünü təmin edən müstəqil ölkəyik. Bu səbəbdən, bu cür olaraq, biz həmin qrupa dəvət olunduq. Lakin həmin vaxtdan etibarən qrupda iki ölkə Avrasiya İqtisadi İttifaqına üzvdür, üç ölkə Assosiasiya Sazişini imzalamış ölkədir. Qalan bir ölkə - Azərbaycan isə hazırda tərəfdaşlıq haqqında saziş üzərində iş aparır. Buna görə, ölkələrə daha fərdi yanaşmanın tətbiq edilməsi lap əvvəldən mövqeyimizin əsasını təşkil edirdi. Əfsuslar olsun ki, əvvəlki Avropa komissiyaları zamanı yanaşmamıza yaxşı yanaşılmadı. Əksinə, biz bəzən hücum hədəfinə çevrildik. Hansısa xüsusi razılaşmanı tələb edən tərəf kimi ittiham olunduq. Bu, belə deyildi. Əslində, biz komissiya ilə xüsusi ünsiyyəti yaratmaq istəyirdik. Saziş üzərində fəal danışıqlara başlamağımız faktı göstərir ki, bu yanaşma artıq üstünlük təşkil etməyə başlayır. Bu, çox müsbətdir. Şərq Tərəfdaşlığı, əlbəttə ki, vacib çərçivədir. Lakin bu çərçivədə, fikrimcə, Azərbaycan ilə Avropa Komissiyası arasında ayrıca razılaşma ən mühüm məsələdir.

Söyləyəcəyim sonuncu məqama gəldikdə, almaniyalı səfirə deməliyəm ki, almanların Azərbaycanda 200 il ərzində olması bu il qeyd edilir. Onlar ölkəmizin qərb hissəsində iki və ya üç şəhərin təməlini qoymuşlar. İlk almanlar Azərbaycana 200 il əvvəl gəliblər. Biz həmin irsi Azərbaycanın qərb şəhərlərində qoruyub saxlayırıq. Biz alman kilsəsini və məşhur şərab anbarlarını bərpa etmişik. Onlar yaxşı şərab istehsal edirdilər. 200 və 100 il əvvəl tikdikləri evlər isə yenə də qalır.

Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Valter Stivens: Cənab Prezident, mən Sizə “Çox sağ olun” deməliyəm. Bizi qəbul etdiyinizə görə çox minnətdaram. Sizinlə fikir mübadiləsi aparmaq imkanına görə təşəkkür edirik.

Siz burada Şərq Tərəfdaşlığı çərçivəsində fərqləndirməni qeyd etdiniz. Bu, həmçinin Şərq Tərəfdaşlığına yenidən baxılmasına dəlalət edən elementdir. Bu, sizinlə razılaşdırdığımız yeni saziş üzərində irəliləyişin əldə olunmasının vacibliyini bir daha göstərir. Fikrimcə, artıq böyük irəliləyiş əldə olunub. Bunun mümkün qədər tez tamamlanmasını səmimiyyətlə arzulayıraq.

Aviasiya haqqında saziş də vacibdir, tamamlanmalıdır. Hesab edirəm ki, Zirvə görüşünə Azərbaycan artıq bir neçə nəticələrlə gələcək və bu, əlaqələrimizin gücləndirilməsində maraqlı olduğumuzu göstərəcək. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Sizə Bakıda xoş səfər arzulayıram. Bilirəm, sizin bir çox mühüm görüşləriniz var. Yenidən səfər etmək qərarına gəlsəniz, sizi yenidən görməyimə ümid edirəm.

Valter Stivens: Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

# Tarixin şanlı səhifəsi

## Eldar İbrahimov: "Ulu Öndər Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilməsi Azərbaycan tarixinin ən şərəfli və ən önəmli səhifələrindən biridir"



***"Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı və 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilməsi Azərbaycan tarixinin ən şərəfli və ən önəmli səhifələrindən biridir".***

Bunu "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, millət vəkili Eldar İbrahimov bildirib. Onun sözlərinə görə, 1992-1993-cü illərdə AXC-Müsavat hakimiyyətinin səhv, düşünülməmiş siyasəti nəticəsində Azərbaycanda vəziyyət həddindən artıq ağır idi, xalqın sabaha inamı itmiş, dövlət müstəqilliyimiz itirilmək təhlükəsi qarşısında qalmışdı: "Ona görə də, Azərbaycan xalqı, birmənalı mövqe ortaya qoyaraq, təkidli tələblə Ulu Öndərimiz Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Bu hadisələr o zamana təsadüf edirdi ki, Gəncədə qardaş qırğını baş vermişdi. Bakıya gələn Dahi Öndər Heydər Əliyev ayın 13-də Gəncəyə getdi. Onun gəlişi ilə gərginlik tədricən aradan qalxmağa başladı. 15 iyunda Ulu Öndərimiz Ali Sovetin Sədri seçildi. Həmin tarixi gün Azərbaycan xalqının Qurtuluşu Günü oldu".

E.İbrahimov bildirdi ki, qanunvericiliyin tələblərinə uyğun olaraq, ölkədə prezident seçkiləri təyin olundu və xalqın istək və tələbi ilə Ulu Öndərimiz Heydər Əliyevin prezidentliyə namizədliyi irəli sürüldü: "3 oktyabr 1993-cü ildə keçirilən seçkilərdə, Dahi Öndərimiz xalqın dəstəyini qazanmaqla, Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələndən sonra qoçu dəstələri ləğv olundu, hərc-mərclik aradan qaldırıldı, əmin-amanlıq, sabitlik yaradıldı, iqtisadi inkişafa və sosial tərəqqiyə nail olundu. 1994-cü ilin 12 may tarixində Ermənistanla atəşkəs əldə olundu. Bundan sonra 1994-cü ilin 20 sentyabrında dünyanın nüfuzlu neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı".

E.İbrahimov o zaman baş verən hadisələrə istinad edərək bildirdi ki, 1993-cü ilə qədər dünyada Azərbaycan adlı bir ölkəni tanımırdılar, Azərbaycana heç kəs gəlmirdi və bilirdilər ki, Azərbaycan dağılmış bir ölkədir: "Amma 1994-cü ildə Heydər Əliyev nüfuzuna, Heydər Əliyev Şəxsiyyətinə, Heydər Əliyev dühasına bələd olan 11 transmilli şirkət Azərbaycana gəldi, "Əsrin müqaviləsi"ndə iştirak etdi və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin əsası qoyuldu. Biz artıq öz neft məhsullarımızla da, enerji sahəsində də Avropanı təmin edirik. Bunun özü çox böyük uğurlu layihələrdir və bu layihələr nəticəsində Azərbaycan özünü dünyada tanıdıb və nüfuzlu dövlət olub. 1993-cü ilə qədər biz kimdənsə, hansısa ölkədən asılı idik, amma indi başqaları gəlir bizdən xahiş edir ki, qoy neft boru kəməri bizim ölkəmizdən keçsin. Yəni ölkələri bu layihələrdən mənfəət əldə edə bilsin. Hazırda TANAP layihəsi icra olunur, bu layihə Yunanıstandan, Türkiyədən keçib, İtaliyaya qədər. Bugünkü layihələrin də həyata keçirilməsi Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Bugünkü görülən işlərin və əldə olunan nailiyyətlərin əsası, məhz 3 oktyabr 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə qoyulub. Bu siyasət də bu gün Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

**İNAM**

# "Yeni Azərbaycan Partiyası milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi"

*Bu mövzuda YAP Binəqədi rayon təşkilatı tədbir keçirib*




Dünən YAP Binəqədi rayon təşkilatının S.S.Axundov küçəsi 3123 ünvanlı ərazi ilk partiya təşkilatında (283 saylı tam orta məktəb) Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə "Yeni Azərbaycan Partiyası milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi" mövzusunda tədbir keçirilib. Tədbirdən öncə, məktəbin foyesində Yeni Azərbaycan Partiyasının və Ulu Öndər Heydər Əliyevin fəaliyyətini, Binəqədi rayonunun nümayəndə heyətinin Cocuq Mərcanlıya səfərini əks etdirən foto-stendlərə baxış keçirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədr müavini Tünzalə Zeynalova respublikamızın ictimai-siyasi həyatında önəmli rolu olan Yeni Azərbaycan Partiyasının 25 illiyinin qeyd olunmasının əlamətdar hadisə olduğunu bildirib.

Daha sonra 283 saylı tam orta məktəbin tarix müəllimləsi Rəhilə Heydərli çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranmasından və Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından danışıb. Bildirib ki, YAP müxalifət partiyası olaraq yaranmasına baxmayaraq, qısa müddət ərzində, xalqın inamını qazandı və iqtidar partiyasına çevrildi. Bununla da Azərbaycan dövləti və xalqı məhv olmaq təhlükəsindən xilas oldu.

Tədbirdə çıxış edən Binəqədi rayon gənclər və idman idarəsinin rəisi Elvin Aslanov Azərbaycanda uğurla həyata keçirilən təhsil siyasətindən və gənclər siyasətindən ətraflı danışıb. Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yüzlərlə gəncimiz istər SSRİ, istərsə də müstəqillik dövründə xarici ölkələrin ən nüfuzlu ali məktəblərində təhsil aldı. Gənclərimizin yüksək təhsil almaları ilə yanaşı, onların hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atıldı. Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun yaradılması, gənclər forumlarının yüksək səviyyədə keçirilməsi deyilənlərin əyani sübutudur. Təbii ki, bütün bunlar gənclərimizi dövlət başçısı Cənab İlham Əliyevin ətrafında daha da sıx birləşməyə və gələcəyə doğru uğurla irəliləməyə sövq edir".



Daha sonra Hüseyn Əsgərov milli-mənəvi dəyərlərimiz mövzusunda geniş çıxış edib. Qeyd edib ki, hər bir xalqın inkişafı və təşəkkülü onun milli-mənəvi dəyərlərinə necə sahib çıxmasından və onu necə qorumasından asılıdır: "Azərbaycanın milli-mənəvi dəyərləri daim qorunmalı və gələcək nəsillərə ötürülməlidir. Təbii ki, milli-mənəvi dəyərlərimizin ən mühüm göstəricisi ana dilimizdir. Bu baxımdan, doğma dilimizi qorumaqla yanaşı, onun zənginliyinin təbliğində də var gücümüzlə çalışmalıyıq". H.Əsgərov, həmçinin, Ulu Öndər Heydər Əliyevin siyasi rəhbərliyi ilə ölkəmizdə əldə olunan nailiyyətlərə diqqət yönəldib.

Tədbirdə yekun nitqi söyləyən YAP Bnəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Yeni Azərbaycan Partiyasının 25 illiyinin silsilə tədbirlərlə qeyd ediləcəyini və bu gündən etibarən bu tədbirlərə start verildiyini bildirib. Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinin yüksək səviyyədə və təntənəli surətdə qeyd edilməsi məqsədilə partiyanın Binəqədi rayon təşkilatı tərəfindən müvafiq tədbirlər planının hazırladığını vurğulayıb. R.Göyüşov YAP-ın yaranması tarixindən, onun Proqram və Nizamnaməsindən geniş danışıb. Partiyanın 6 ideoloji prinsipi içərisində azərbaycançılıq və vətənpərvərliyin xüsusi əhəmiyyət daşıdığını qeyd edib. Bu ideoloji prinsiplərin, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olaraq, daim təbliğ olunmasının önəmini diqqətə çatdırıb: "Bizlər bəşəri olmaqla yanaşı, milliliyimizi, milli-mənəvi dəyərlərimizi yaşatmalı, onları yad təsirlərdən qorumalı və gənc nəsli bu ruhda tərbiyə etməliyik".

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına üzv qəbul olunan şəxslərə partiya üzvlük vəsiqələri təqdim olunub.

Tədbir şagirdlərin ifasında bədii hissə ilə başa çatıb.

**ZÜMRÜD**



# Yeni Azərbaycan Partiyası qəlbi vətən sevgisi ilə döyünən hər kəsin partiyasıdır



Dünən YAP Yasamal rayon təşkilatının Moskva prospekti - 67 ərazi ilk partiya təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə tədbir keçirib.

Tədbiri giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Heydər Abbasov partiyanın keçdiyi yola qısa nəzər salıb. Bildirib ki, hakim partiya Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ağır sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. H.Abbasov yarandığı vaxtdan ölkənin ictimai-siyasi həyatına həlledici təsir göstərən hakim partiyanın qurucusunun dünya miqyaslı siyasətçi, Azərbaycan xalqının inandığı və sevdiyi dahi bir Şəxsiyyətin olmasının bu prosesdə mühüm və əhəmiyyətli rol oynadığını vurğulayıb. Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində yaradılan, ölkəmizin sağlam və mütərəqqi qüvvələrini öz sıralarında birləşdirərək cəmiyyətdə aparıcı mövqe tutan, nüfuzlu və qüdrətli ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının 25 ildə keçdiyi çətin və şərəfli mübarizə tarixindən danışıb. Yeni Azərbaycan Partiyasının ümummilli partiya olduğunu, bu gün bu şərəfin və qürurun hər kəs tərəfindən yaşandığını qeyd edib. YAP-ın təkcə partiya üzvlərinin deyil, həm də qəlbi hər zaman vətənə sədaqət və sevgi ilə dolu olan hər kəsin partiyası olduğunu bildirib. Bu gün Azərbaycanın həyatın bütün sferalarında əldə etdiyi nailiyyətlərə nəzər salan rayon təşkilatının sədri qeyd edib ki, bu nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kurs və partiyamızın Sədri, Möhtərəm Prezidentimiz İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan sosial-iqtisadi inkişaf siyasəti xalqımızın partiyamıza etimadının əsas təməlini təşkil edir.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunan şəxslərə partiya üzvlük vəsiqələri təqdim olunub.

**NƏZAKƏT**



## Las-Veqasın işığını söndürən terror

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Yəqin ki, bir çoxları bilir, Las-Veqas ABŞ-ın, eləcə də, dünyanın qumar oyunları mərkəzi kimi tanınan şəhərlərindəndir. Hətta kosmosdan belə, bu şəhərdə fəaliyyət göstərən minlərlə kazinoların sayrışan, rəngbərəng işıqları görünür. ABŞ astronavtı Stafford Tomas hələ "Apollon" kosmik gəmisində Ayın orbitinə çıxarkən, Las-Veqası Yer planetinin sönməyəcək ulduzu kimi tərif etmişdi. Lakin yaradılan bu süni gözəlliklər diyarında bir neçə gün öncə baş verən qanlı hadisə dünyaya tamamilə başqa bir siqnal vermiş oldu. Nə Las-Veqasın kosmosdan ulduz kimi görünməsi, nə də digər süni gözəlliklər düşüncələri başqa istiqamətə yönəltdi - terrora...***

Las-Veqasda baş vermiş qanlı terrorun hər an, hər yerdə baş verə bilməsi təhlükəsi insanları düşünməyə vadar etdi və bəlli oldu ki, bu, bir siqnalıdır, yeni gerçək həyəcan siqnalı olan SOS-dur. Bəs nəyə görə, məhz Las-Veqas? Əslində, bu sualın cavabı arxasında bir çox amillər dayanmaqdadır. Ancaq həmin cavablara gəlincəyə qədər, məhz ilk cavab üzərində dayanmaq pis olmazdı. Məsələ ondadır ki, "İŞİD" terror təşkilatı 60-a yaxın insanın ölümü və 700-ə qədərinin yaralanması hadisəsini öz üzərinə götürüb. Hətta edilən etirafda bildirilib ki, qanlı olayı törədən terrorçu bir neçə ay idi ki, "islamı" (qeyd: islam sözünü ona görə dırnaqda yazdım ki, həqiqi islam bu cür hadisələri rədd edir-R.) qəbul etmişdi və nəticədə terrorun törədilməsi üçün xüsusi hazırlıq da keçib. Belə olan halda, sual yaranır: əcəba, son bir neçə ayda axır nəfəsini verərək məhvə doğru sürüklənən İraqda, Suriyada və s. qaynar nöqtələrdə ardıcıl məğlubiyyətlərə uğrayaraq, süqut edən "İŞİD"-in yaradılmasının arxasında hansı güc, ya da güclər dayanıb? Əslində, elə də uzağa getməyərək, ABŞ-ın sabiq dövlət katibi Hillari Klintonun "Çətin Seçim" (Hard Choices) adlı kitabını vərəqləməklə orada edilən etirafları nəzərdən keçirmək olar. Amerikalı qadın siyasətçi adıçəkilən kitabda yazır ki, "İŞİD"in arxasında duran və bu terrorçu təşkilatı yaradan, məhz Amerikadır! Bu kitabın sosial mediada geniş müzakirəsi, əsasən, bu sübutla bağlıdır. Sübut isə ondan ibarətdir ki, Klintona görə, Suriyada üsyançılar prezident Beşər Əsədə qarşı mübarizəyə qalxanda, ABŞ onları müdafiə etmədi. Nəticədə "cihadçılar", yeni radikal islamçılar qısa müddətdə fərqli baxışları ilə seçilən üsyançıları sıxışdırıb meydandan çıxardılar, bununla da, əsas qüvvəyə çevrildilər. ABŞ istər açıq, istərsə də gizli şəkildə artıq yaradılmış "İŞİD"in əsas silah və hərbi təlim təminatçısına çevrildi. Bu gün sosial mediada da həmin məsələni kifayət qədər sübuta yetirən faktlar mövcuddur.

Beləliklə, ABŞ elə özünün yaratdığı terror təşkilatın toruna düşüb və belə də olmalıydı. Yəni nəinki ABŞ, eləcə də, Avropada tüğyan edən "islam" terroru Qərb siyasilərinin oynadıqları çirkin oyunların məntiqi nəticəsidir, Las-Veqas da içində!

İndi, necə deyərlər, amerikalı və avropalı başbilənlər yaratdıqları çirkinliyi yığıb-yığışdırmaqda aciz qalıblar. Əgər sabah Nyu-Yorkda, Vaşinqtonda, digər böyük ştatlarda, həmçinin, yenidən Avropa paytaxtlarında bənzər qanlı olaylar yaşanarsa, bunun günahı elə amerikalı və avropalı başbilənlərdə görülməlidir. Çünki onların qurduqları tələ, qazdıqları quyu minlərlə günahsız insanın ölümünə və qətlinə səbəb olub. Görünür, indi növbə yaradıcılarındır. Bu gün onların yaratdıqları və həddini aşaraq istədikləri siyasi bəhrəni verməyən "İslam Dövləti" Las-Veqasın işığını söndürürsə, sabah elə əsl sahiblərini məhv edə bilər. Nə qədər gec deyil, "beynəlxalq terrorla mübarizə" adı altında, əslində, real və qaniçən terror təşkilatları yaradanlar düşünsünlər. Düşünsünlər ki, Las-Veqas qırğını onlara verilmiş sonuncu siqnal ola bilər...

***P.S. "İŞİD" bir növ, gözü qızanda, hətta yiyəsini də tanımayan və aşırı şəkildə vəhşiləşib sahibini parçalayacaq qədər nankor olan pitbull köpəklərinə bənzəyir. Bu kimi cins köpəklərin gözləri qızanda, onları yalnız məhv etmək qalır...***

# Türkiyə-İran yaxınlaşması - regionda birlik və bərabərliyə doğru atılan növbəti tarixi addım

***Məlum olduğu kimi, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın İran İslam Respublikasına rəsmi səfəri baş tutub və onun qonşu ölkədə İranın ali dini lideri Seyid Əli Xamneyi, eləcə də, prezident Həsən Ruhani ilə mühüm görüşlər keçirməsi dünyanın diqqət mərkəzindədir. O cümlədən, Ərdoğanın rəsmi Tehran səfəri çərçivəsində Türkiyə-İran Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının 4-cü toplantısının da keçirilməsi özündə bir çox əhəmiyyətli məqamları ehtiva etməkdədir. Verilən məlumatlardan da, bəlli olur ki, Türkiyənin dövlət başçısının İranın ali rəhbərliyi ilə görüşündə, əsasən, hər iki ölkənin qonşusu sayılan İraqın şimalında keçirilmiş separatçı "kürd referendumu", Suriya böhranının həlli və İraqla Suriyanın ərazi bütövlüyünün qorunması məsələləri, o cümlədən, ölkələr arasındakı ticari dövriyyənin artırılması əsas müzakirə mövzularıdır.***

### Türkiyə və İran ölkə rəhbərlərinin də görüşlərində razılaşdırılan fikirlərin Azərbaycanın maraqlarının təminatında yer alması şübhəsizdir

Bu kimi məsələləri Türkiyə mətbuatı da qeyd edir və bildirilir ki, Ərdoğan İrana üç mühüm sənədlə gedib. Belə ki, "Takvim" qəzetinin elektron variantında həmin sənədlərin mahiyyəti barədə informasiya yerləşdirib. Misal üçün, qeyd edilənlərlə yanaşı, Ərdoğan və Ruhani arasında baş tutacaq görüşdə iki ölkə arasındakı ticarət dövriyyəsinin həcminin 30 milyard dollara qədər yüksəldilməsi barədə fikir mübadiləsi aparılacaq. Ümumiyyətlə, nəzərə alsaq ki, hər iki ölkə - həm İran, həm də Türkiyə Azərbaycanla həmsərhəd olmaqla yanaşı, eyni zamanda, tarixi köklərə bağlı olan ölkələrdirlər, belə olan halda, istər siyasi, istərsə də iqtisadi faktor yanaşmalarında əldə edilmiş hər hansı ümumi razılaşmalar, istər-istəməz, ölkəmizə də müəyyən müsbət təsirlərini göstərə bilər. Çünki Azərbaycanın regional və beynəlxalq layihələrdə aparıcı, yaxud da təşəbbüskar rolunda çıxış etməsi fonunda atılan münbit addımlar və verilən qərarların hər birində qonşu ölkələrin də maraqları diqqətə alınır. Bu baxımdan, Türkiyə və İran ölkə rəhbərlərinin də görüşlərində razılaşdırılan fikirlərin Azərbaycanın maraqlarının təminatında yer alması şübhəsizdir.

### Yaxın vaxtlarda Bakıda Azərbaycan, İran və Türkiyə xarici işlər nazirlərinin də görüşü gözlənilir

Yeri gəlmişkən, biz elə də uzağa getməyərək, Bakıda, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə baş tutmuş Azərbaycan-İran İslam Respublikası və Rusiya Federasiyası dövlət başçılarının zirvə görüşünü xatırlaya bilərik. Əbəs yerə deyil ki, bu zirvə görüşü Türkiyə mediasında diqqətə alınaraq, maraqla izlənilmişdi. Məlumatlarda Azərbaycan, İran və Rusiya dövlət başçılarının ilk üçtərəfli görüşünün tarixi əhəmiyyət daşıdığı bildirilərək, üç ölkə arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi baxımından da, önəmli olduğu vurğulanmışdı. Artıq həmin tarixi zirvə görüşünün də müsbət nəticələri göz önündədir.

Bundan başqa, Türkiyə KİV-i Azərbaycan-Rusiya, Azərbaycan-İran ikitərəfli münasibətlərinin inkişafı məsələlərindən də bəhs edərək, bu görüşlərin, ümumilikdə, regiona müsbət nəticələr verəcəyi barədə şərhlər və ekspert açıqlamaları yerləşdirmişdi.

Daha bir əhəmiyyətli məqam isə yaxın vaxtlarda Azərbaycan, İran və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşünün keçirilməsi barədə İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadənin verdiyi bəyanatıdır. Səfir həmin bəyanatında Azərbaycan, Rusiya və İran prezidentlərinin görüşünün də bu il Tehranda keçiriləcəyini təsdiqləmişdi.

Məhz belə bir qarşılıqlı anlaşma mühitində baş tutan görüşlərin hər biri, bilavasitə mehriban qonşuluq siyasətinin bariz nəticəsi olaraq qiymətləndirilə bilər. Regionda ümumi maraqlar kontekstindən yürüdülən və yürüdüləcək hər bir bənzər siyasi qərarlar, bilavasitə regionda sülhün təminatı, eləcə də, iqtisadi inkişaf perspektivlərini artırmaqdadır.



### Şimali İraqdakı separatçılığa qarşı birgə mübarizənin növbəti hədəfinin işğalçı Ermənistan və separatçı "DQR" olması kifayət qədər mümkün görünür

Əgər nəzərə alsaq ki, Azərbaycan artıq uzun illərdir ki, təcavüzkar Ermənistanın işğalçılıq siyasəti ilə üzləşir və Dağlıq Qarabağda separatçılıq toxumu bu gün də cücərməkdədir, bu zaman Türkiyə və İran dövlət başçılarının Şimali İraqda baş qaldıran separatçılığa qarşı birgə siyasi qərarlar

# Türkiyə-İran yaxınlaşması - regionda birlik və bərabərliyə doğru atılan növbəti tarixi addım



### Qərb siyasi tandemi Şərq siyasi tandemi ilə əvəzlənir, Azərbaycan da bu mühitdə vacib yer alır

vermələri yalnız alqışlana bilər. Çünki növbəti hədəfin, məhz işğalçı Ermənistan və separatçı "DQR" olması kifayət qədər mümkün görünür. Belə ki, bu gün Ermənistanın hakim siyasi elitası istər gizli, istərsə də açıq şəkildə Şimali İraqda keçirilmiş "referendumu" dəstəkləyir. Baxmayaraq ki, Ermənistanın asılı olduğu Rusiya Federasiyası İraqın ərazi bütövlüyünü dəstəklədiyi barədə qərarını rəsmi şəkildə açıqlayıb.

O cümlədən, Rusiyanın son dövrlərdə Türkiyə, eləcə də, İranla isti münasibətlərinin köklü dayaqlara söykənməsi amili bu məsələdə vahid mövqenin yaranmasına, xüsusilə, "İslam Dövləti" və s. terror qruplarına qarşı Suriyadakı mübarizədə eyni baxışdan çıxış etmələrinə münbit imkanlar verir.

Qeyd olunanlarla yanaşı, bu gün Türkiyə və İranın istər Türkiyədə PKK, istərsə də İranda PJK kimi kürd separatçı və terror təşkilatlarına qarşı mübarizələri ortaq məxrəci bölüşür, həmçinin, Şimali İraqda qondarma referendumun keçirilməsi də bu dövlətlərin maraqlarına qarşıdır, onda bu ölkələrin, ümumilikdə regionda separatçılığa və terrorizmə qarşı mübarizələri yalnız güclənə bilər.

Başqa tərəfdən, hazırda beynəlxalq ictimaiyyət Qərb siyasətinin sürətlə fiaskoya uğramasının şahidlərinə çevrilməkdədir. Bu gün Qərb siyasi tandeminin Şərq siyasi tandemi ilə əvəzlənməsi də özündə bu amilləri aşkar olaraq göstərməkdədir. Qərbin siyasi dairələrinin müsəlman ölkələrində oynadıqları oyunlar artıq qoca qitənin özünə ciddi siyasi və iqtisadi fəsadlar verir ki, biz Türkiyənin dövlət başçısının İrana rəsmi səfəri çərçivəsində deyilənləri aşkar olaraq görməkdəyik. Daha dəqiq desək, hərbi-siyasi faktorlarla yanaşı, bölgədə yeni iqtisadi mühitin yaranması, Azərbaycanın da həmin mühitdə vacib yer alması artıq reallığa çevrilib.

Beləliklə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın İran İslam Respublikasına rəsmi səfəri və bu ölkədə əldə ediləcək hər bir razılaşma regionda birlik və bərabərliyə doğru atılan növbəti tarixi addım olaraq dəyərləndirilə bilər.

*Rövşən NURƏDDİNOĞLU*



Çalxalandıqca, bulandıqca zaman nehrə kimi...

RƏFİQƏ

### Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!..

***Düzü, özündə olmayan şeydən danışanda, dözə bilmirsən. "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü olan Gültəkin Hacıbəyli Milli Məclisdə təmsil olunan zaman Azərbaycan dövlətinin sürətli inkişaf yolunda olduğunu deyirdisə, bu gün bu uğurları görən gözləri kor, düşünən beyni boş olub. "Demokrat xanım" bu gün erməni mətbuatında həyasızcasına bu uğurlara kölgə salan yazılar verməkdən belə çəkinmir.***

G.Hacıbəyli o şəxsdir ki, dəfələrlə satılıb. Satılan olduğu üçün də ölkəmizi fəlakət girdabına sürükləməyə çalışan cəhalət daşıyıcılarının hakimiyyətə və daha çox dövlətə qarşı çağırışlarına bərk aludə olub. O qədər ki, irtica, cəhalət, qarşıdurma və parçalanma çağırışları edən "dinçi" avantüristləri öyməkdən belə çəkinməyib.

Elə isə, nədir bu eks-deputat "xanım"ın dərdi, hikkəsi? Əlbəttə, radikal dinçi dəstənin hakimiyyətə qarşı xaricdən körüklənən nifrəti! O və onun həmfikirləri pay ala bilmədikləri qazanın altını deşməyə çalışanlardır.

Öz feysbuk profilində hakimiyyət haqqında "siyasi məhbusların azadlığı və demokratik islahatlar tələbini rədd edənlər..." yazan "xanım" Hacıbəyli illər öncə, ölkədə "siyasi məhbus"un olmadığına dair Avropanın ən mötəbər qurumlarının tribunalarından söylədiyi fikirləri nə tez unudub? Azərbaycanı Avropa Şurasında təmsil edən heyətin üzvü olaraq G.Hacıbəylinin o vaxt hansı mövqedə olduğunu onu tanıyanlar yaxşı bilir. Bütün bunlara rəğmən, özünü "demokrat" adlandıran dağıdıcı müxalifət "liderləri"nin üzvü G.Hacıbəyli kimi nankor və satqınların əsl siması olmaqla yanaşı, həm də erməni mediasında da çıxışlar etməkdən belə çəkinmir. O, erməni mediasında çəkinmədən, yazır ki, guya apardıqları mübarizə yalnız siyasi mübarizə deyil, həm də ədalət və ləyaqət uğrunda mübarizədir! Əcdadlarımızın inancına görə, odun-alovun təmizləyici qüvvəsi var. Odur ki, ədalətli və ləyaqətli olmaqdan ötrü hələ "demokrat", "ədalətli xanım" hələ çox odlardan-alovlardan keçməlidir.

### Erməni sevdalı "demokrat xanım"

Milli heysiyyəti ələ salan, çirkab və üfunət dolu bir əsərin tək bir səhifəsini belə oxumadan onun öz əqidə qardaşı, məslək dostu olan erməni sevdalı "demokrat xanım" G.Hacıbəyli üçün hansı yolla getməyinin heç bir əhəmiyyəti yoxdur. Bütün bu deyilənlər "demokratiya" libasına bürünən, xalqa "demokratik prinsiplərdən dərs keçən", yeri gəldi-gəlmədi iqtidarı tənqid edən "demokrat xanım"ın əsl mahiyyətini, gerçək simasını bir daha ortaya qoyur. Bu yerdə məşhur bir atalar məsəlini xatırlamaq yerinə düşür: utanmasan, oynamağa nə var ki?

## Türkiyə XİN: "Azərbaycanın icazəsi olmadan işğal altındakı torpaqlara səfər etmək beynəlxalq hüquqa ziddir"




***Türkiyənin Xarici İşlər Nazirliyi (XİN) bu ölkə vətəndaşlarının Azərbaycanın işğal altında olan torpaqlarına səfər etmələri ilə bağlı açıqlama yayıb. AZƏRTAC xəbər verir ki, açıqlama Türkiyənin Xarici İşlər Nazirliyinin rəsmi saytına yerləşdirilib.***

Nazirlik məsələ ilə bağlı 2017-ci il 29 sentyabr tarixli açıqlamasına əlavə olaraq qeyd edib ki, Türkiyə işğal altında olan torpaqlarımızın azad olunması üçün Azərbaycanla birlikdə fəaliyyət göstərməkdədir. Bildirilir ki, işğal altındakı torpaqlara Azərbaycanın icazəsi olmadan səfər etmək beynəlxalq hüquqa ziddir. Vətəndaşların diqqətinə çatdırılır ki, Azərbaycan tərəfi bu cür səfərlərin qarşısını almaq üçün qanunauyğun olaraq məhdudiyyətlər tələb edir. Odur ki, bu cür qanunsuz səfərlər edən Türkiyə vətəndaşları da həmin tələblərə əməl etməlidirlər. Qanuni tələblərə riayət etmək daha münasibdir.

Açıqlamada qeyd olunur ki, Türkiyə tərəfi qeyd olunan ərazilərə qanunsuz səfər edən vətəndaşları müdafiə etmək imkanında deyil.

## "Avropa yanlış siyasətinin acı nəticələrini dadır"



"Avropanın müəyyən dairələri özlərinin yanlış siyasətlərinin acı nəticələrini dadırlar. Bir vaxtlar onlar Azərbaycanda Ermənistan xüsusi xidmət orqanları tərəfindən törədilən terror hadisələrinə göz yumdular. İndi isə terror həm Avropanı, həm də ABŞ-ı bürüyüb". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Vaxtilə Dağlıq Qarabağda separatçılığın baş qaldırması, Ermənistan tərəfindən torpaqlarımızın bir hissəsinin işğal etməsi nəticəsində ərazi bütövlüyümüzün pozulmasına Avropanın müəyyən dairələrinin əhəmiyyət vermədiyini deyən deputat söyləyib ki, hazırda isə Avropada separatçılıq baş qaldırıb: "Belə ki, Böyük Britaniya, Şotlandiya, hazırda Kataloniya, Belçikanın özündə separatçılıq çox güclüdür. Bunun özü göstərir ki, separatçılıq artıq Avropa üçün böyük problemə çevrilməyə başlayıb. Onun vaxtilə dəstək verib yaratdığı İraqın Kürd Muxtariyyəti bu gün artıq Avropanın nəzarətindən çıxaraq özünün şərtlərini diktə etməyə başlayıb". A.Mirzəzadə qeyd edib ki, göründüyü kimi dünya üçün problem olan məsələlərə Avropanın vaxtilə əhəmiyyət verməməsi indi konkret olaraq onun üçün problem yaratmağa başlayıb: "Artıq Avropanın ikili standartı keçmir. Əgər Avropa vaxtında Ermənistanın Azərbaycana torpaq iddiasına, düşmən ölkənin Türkiyə və ölkəmizdə törətdiyi terror hərəkətlərinə göz yummasa idi, Avropa bu gün özündə belə ağrılı günləri yaşamazdı. Həqiqətə bir dəfə göz yummaq, sonda göz yumanın özünün problemlər içərisində yaşamasına səbəb olur".

*Nailə Məhərrəmova*

## Ermənistan boşalır -12011 nəfər ölkəni tərk edib




Azərbaycanın 20 faiz torpağını işğal edən, qonşularına ərazi iddiaları irəli sürən Ermənistanda dəhşətli demoqrafik vəziyyət yaranıb. SİA-nın erməni mətbuatına istinadən verdiyi məlumata görə, cari ilin 9 ayı ərzində yalnız hava yolu ilə 12011 nəfər ölkəni tərk edib. "Zvartnots" hava limanından 933 min 384 erməni ölkədən gedib və 922 min 910 nəfər isə geri qayıdıb. Gümrüdəki hava limanı vasitəsilə 33 min 713 nəfər yola düşüb, 32 min 176 nəfər qayıdıb.

Qeyd edək ki, Ermənistanı tərk edib, geri dönməyənlərin say müxtəlifliyi 12 min nəfərdən çoxdur. Ermənistandan xarici ölkələrə köçənlərin sayı tam olaraq göstərilmir. Hava yolundan fərqli olaraq, quru yolla ermənilərin kütləvi şəkildə Rusiyaya getdikləri məlumdur.

# Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təminatı yönündə apardığı siyasət uğurlu nəticələr verir

*Milli Məclisin deputatı Azər Badamovun yap.org.az-a müsahibəsi*

**- Azər müəllim, ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar bir sıra sahələrin əsaslı yüksəlişini təmin edib. Bu mənada kənd təsərrüfatı və turizm sahələrini xüsusi qeyd etmək lazımdır. Son statistik göstəricilərdə də aqrar sektorun ayrı-ayrı sahələrinin yüksək inkişaf tendensiyası əldə etdiyi məlum olur. Bu inkişaf tempinin əldə olunmasında əsas şərt nədən ibarətdir?**



- Birmənalı şəkildə vurğulanmalıdır ki, son illərdə ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi iqtisadiyyatın şaxələndirilməsi strategiyasında kənd təsərrüfatı xüsusi yerə malikdir. Birmənalı şəkildə vurğulanmalıdır ki, kənd təsərrüfatının ayrı-ayrı sahələrində atılan addımlar, görülən tədbirlər, o cümlədən təsərrüfatların genişləndirilməsi və əkin sahələrinin artırılması istiqamətində görülən işlər bu gün aqrar sahənin poaulyarlıq qazanmasında əsaslı rol oynayıb. Bu ilin əvvəlindən regionların bir sıra kənd təsərrüfatı sahələri üzrə ixtisaslaşdırılması, ard-arda respublika müşavirələrinin keçirilməsi, bu sahədə ixracatın artırılması üçün görülən işlər göz önündədir. Pambıq və tütün istehsalının genişləndirilməsi, fındıq bağlarının, sitrus meyvələrinin yetişdirilməsi istiqamətində dövlətimizin gördüyü işlər, sahibkarlara verilən dəstək artıq öz bəhrəsini verir. Hazırda respublikamızda iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir. İndiyədək dövlət başçısının tapşırığına uyğun olaraq ölkəmizin 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb. Bu təsərrüfatlar üçün yaradılan münbit şərait, verilən subsidiyalar isə istehsalın artımına öz əsaslı təsirini göstərməkdədir.

Təbii ki, bu təsərrüfatların yaradılmasına dövlətin verdiyi güzəştli kreditlərin də mühüm yeri var. Belə ki, bu təsərrüfatların yaradılmasına 72,4 milyon manat dövlət güzəştli kreditləri verilib. Bu olduqca böyük bir rəqəmdir və təsərrüfatların gələcək fəaliyyətinə də əsaslı təsir göstərir. Bunun nəticəsi idi ki, bu ilin məhsul istehsalında əldə olunan statistik rəqəmlər də yüksəkdir. Məsələn, iri fermer təsərrüfatlarının taxıl istehsalında məhsuldarlıq hər hektardan arpa və buğda üzrə 58-60, qarğıdalı üzrə isə təxminən 120 sentner təşkil edir. Bütün bu məqamları ümumiləşdirdikdə isə ortaya belə bir mənzərə çıxır. Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təminatı yönündə apardığı siyasət uğurlu nəticələr verir və bu siyasətin davam etdirilməsi ölkəmizin kənd təsərrüfatı məhsullarının ixrac potensialını artırır.

**- Artıq ayrı-ayrı rayonlarımızda yeni aqroparkların yaradılması yönündə də əsaslı işlər görülür. Ümumiyyətlə, aqroparkların yaradılması ölkəmizdə aparılan iqtisadi siyasətdə hansı rola malikdir?**

-Bəli, yeni yaradılan aqroparklar da olduqca mühüm əhəmiyyətə malikdir. Ölkə Prezidenti İlham Əliyev Neftçala rayonunda sənaye parkının açılışındakı çıxışında da bildirdi ki, gələn ilin İnvestisiya Proqramında dövlət investisiya xərcləri sırasında mütləq yeni bölgələrdə sənaye zonalarının yaradılması nəzərdə tutulmalıdır. Bu plan həm də ölkəmizdə sənayeləşmənin yeni mərhələsinin başlanğıcıdır. İndiyə qədər qəbul olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları yerlərdə yeni infrastrukturların qurulmasını, qazlaşdırma, elektrik təminatı, suvarmanı təmin edib. Bu gün bölgələrimizdə davamlı işıq, qaz, içməli su verilişi təmin edilib. Hətta ucqar kəndlərimizdə belə bu problem aradan qaldırılıb. O cümlədən, yeni yolların çəkilməsi istər sənaye məhəllərinin, istərsə də iri fermer təsərrüfatlarının işini daha da asanlaşdırır.

Yəni, yeni infrastrukturların qurulması artıq sənayenin və kənd təsərrüfatının yeni mərhələdəki inkişafını təmin edir. Regionların potensialı, ənənələri, əmək resursları və bu kimi digər mühüm amillər nəzərə alınmaqla yaradılan aqroparklar bir sıra nöqteyi-nəzərdən də əhəmiyyətlidir. Azərbaycan hər cəhətdən müasir təsərrüfatlar sayılan aqroparkların yaradılmasını siyasi və maddi cəhətdən dəstəkləməklə daxili ərzaq tələbatını bütünlüklə yerli istehsal hesabına qarşılamaq, eyni zamanda, xarici bazarlara çıxarılacaq məhsullarımızın həcmini artırmaq məqsədi güdür.

***- Azər müəllim, məlumdur ki, ölkəmizin daha sürətli inkipafına torpaqlarımızın bir hissəsinin Ermənistan tərəfindən işğal olunması mane olur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəmizin mövqeyi Azərbaycanın ərazi bütövlüyünün təminatına əsaslanır. Hər zaman işğalçı Ermənistana qarşı susqunluq nümayiş etdirən, bu münaqişənin həllinə laqeyd münasibət göstərən Qərb özü bu gün separatizmdən əziyyət çəkir. Necə düşünürsüz, Azərbaycana qarşı bu mənada ikili standartlarla yanaşan Qərb dünyasının indi bu problemin cənginə düşməsinə əsas səbəb nədir?***

-Təəssüf ki, illərdir ölkəmizin torpaqlarını işğal edən, ərazi bütövlüyümüzü pozan Ermənistana qarşı beynəlxalq aləmin reaksiyası qətiyyəti ilə seçilməyib. Azərbaycan Prezidentinin apardığı siyasət ölkəmizin bu münaqişənin həlli prosesindəki üstünlüyünü təmin edib. İstər beynəlxalq hüquq normaları çərçivəsində atılan addımlar, istərsə də hərbi potensialın inkişafı yönündə görülən tədbirlər Azərbaycan dövlətinin üstünlüyünü açıq şəkildə ortaya qoymaqdadır. Bir müddət öncə Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışı ölkəmizin mövqeyini bir daha dünya ictimaiyyətinə nümayiş etdirdi. Dövlət başçısının işğalçı dövlətə qarşı heç bir güzəştin olmayacağı, Azərbaycanın ərazi bütövlüyünün təmini, torpaqların qeyd-şərtsiz işğaldan azad edilməsi kimi fikirləri bu münaqişənin həlli prosesinin əsas konturlarını bir daha bəyan etdi. Prezidentimizin ötən ilin aprel döyüşlərinə istinad edərək Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək iqtidarında olmasını söyləməsi onsuzda bəlli olan hərbi üstünlüyümüzün göstəricisi idi. Amma bu, bir daha onu nümayiş etdirir ki, Azərbaycan dövləti bu münaqişənin həllinə danışıqlar vasitəsilə, qansız, müharibəsiz həll olmaq niyyətindədir. Bu fakt bizim humanizm siyasətinə sadiqliyimizi ortaya qoyur. Qərb dünyası bunu görməlidir.

Bu gün erməni işğalına göz yuman ölkələr, Avropa, Qərb dünyası separatizmin caynağındadır. Kataloniyada baş verənlər bunun bariz nümunəsidir. Bu presedentin başqa ölkələrə sıçramayacağını da heç kim iddia edə bilməz. Bunun üçün də beynəlxalq aləm birmənalı şəkildə işğala, separatizmə qarşı birləşməli və effektli mübarizə metodları nümayiş etdirməlidir. Azərbaycan dünyaya sülh, tolerantlıq, multikulturalizm nümunəsi göstərir. İnsan hüquq və azadlıqlarının təmini ölkəmizdə yüksək səviyyədədir. Amma dünənə qədər məhz bu faktorlardan dünya ölkələrinə qarşı təzyiq kimi istifadə edən Avropa artıq öz yalanlarının içində əriyir. İnanıram ki, gec-tez dünya birliyi Dağlıq Qarabağ münaqişəsinin də ədalətli həllində vasitəçi olacaq və ölkəmizin ərazi bütövlüyü təmin ediləcək.

## Bu, ermənilərin işğalçılıq siyasətini dəstəkləyən qüvvələrin fəaliyyətidir”



“Azərbaycana qarşı ədalətsiz mövqelərə ilk dəfə deyil ki, rast gəlirik. Zaman-zaman ölkəmizin uğurlarını, inkişafını istəməyən qüvvələr Azərbaycana qarşı müxtəlif bəhanələrlə təzyiq etməyə cəhd edirlər ki, son dövrlərdə bir sıra media qurumların üzərindən edilən təzyiq cəhdləri də bu qəbildəndir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Rövşən Rzayev deyib. Deputat bildirib ki, ölkəmizə qarşı yönələn təzyiqlərin arxasında erməni lobbisi dayanır: “Bu heç də sadə məsələ deyil. Bu barədə biz daha dərindən düşünməli, gələcək münasibətlərimizi bir daha gözdən keçirməliyik. Azərbaycana qarşı qurulan neqativ halların qarşısının alınması istiqamətində işlərimizi davam etdirməliyik”.

Son günlər Azərbaycanın hüquq mühafizə orqanlarının həyata keçirdiyi əməliyyat tədbirlərinin ölkəmizdə insan hüquqlarının pozulması kimi qələmə verildiyini xatırladan R. Rzayev söyləyib ki, heç kim Azərbaycanın daxili işinə qarışa bilməz: “Bir neçə gün bundan hüquq mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyat tək bizdə deyil, bütün dünya ölkələrində keçirilir. Lakin bunun insan hüquqlarının pozulması kimi qələmə verilməsi illərdir Azərbaycanı zəiflətmək istəyən və heç bir uğurumuza sevinməyən, ölkəmizi beynəlxalq aləmdə silinməsini istəyən, ermənilərin işğalçılıq siyasətini dəstəkləyən qüvvələrin işidir. Təbii ki, bunların heç biri bizi qorxutmur. Azərbaycan öz müstəqil siyasətini yürütməklə yanaşı, beynəlxalq aləmdəki imicinin artırılması istiqamətində daha böyük layihələr həyata keçirməkdədir”.



## Suraxanıda Beynəlxalq Müəllimlər Günü qeyd edilib

***Suraxanı rayonunda Beynəlxalq Müəllimlər Günü münasibəti ilə geniş tədbir keçirilib. Rayon ərazisində yerləşən təhsil müəssisələrində çalışan təhsil işçilərinin bir qrupunun qatıldığı tədbirdə ali məktəblərə qəbul imtahanında yüksək nəticə göstərən rayon məzunları da iştirak ediblər.***

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin Heydər Əliyev Parkındakı abidəsini ziyarət edərək, önünə tər güllər qoyublar. Sonra tədbir Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin Elektron lektoriya zalında davam etdirilib.

Tədbiri giriş sözü ilə açan Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov bildirib ki, müəllimlik dünyada ən çətin, eyni zamanda, ən şərəfli və ən gözəl peşədir. Əsası Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhsil strategiyası bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 14 ildə milli təhsil sisteminin məzmununda əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdir. Müasir dövrün tələblərinə cavab verən fəal maarifçilik kursu həyata keçirilir. Mütərəqqi yeniliklərin tətbiqi yolu ilə milli təhsil sistemi müasirləşdirilir. Dünya təhsil məkanına inteqrasiya ölkəmizdə reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilib.

İ.Abbasov qeyd edib ki, təhsilə göstərilən dövlət qayğısı Suraxanı rayonundan da yan keçməyib. Suraxanı rayonunda son 14 ildə 5920 şagird yerlik 7 məktəb binası, şagird sıxlığını aradan qaldırmaq məqsədi ilə 14 məktəb üçün 7340 şagird yerlik 17 əlavə tədris korpusu tikilmiş, 26372 şagird yerlik 23 məktəb binası əsaslı təmir olunub.

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Barxudar Barxudarov, Milli Məclisin deputatları Ağacan Abıyev, Sevinc Fətəliyeva, Fərəc Quliyev, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, 278 nömrəli tam orta məktəbin direktoru Məlahət Əliyeva, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında yüksək bal toplayan Prezident təqaüdçüləri Pərvin Əhmədova, Səidə İsmayılova, Aysel İbrahimova, valideyn Vasif İbrahimov təhsilə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı Cənab İlham Əliyevə öz dərin təşəkkürlərini bildiriblər.

Bir qrup təhsil müəssisəsinin kollektivi və təhsil işçiləri, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında ən yüksək nəticə göstərən məzunlar rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edilib və onlara qiymətli hədiyyələr verilib. Tədbir şagirdlərin ifasında bədii hissə ilə başa çatıb.

**ZÜMRÜD**

# "Müasir Azərbaycan dövlətçilik tarixində Yeni Azərbaycan Partiyasının rolu"

*Bu mövzuda Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı silsilə tədbirlər keçirib*

***Dünən Masallı şəhər Heydər Əliyev Mərkəzində "Müasir Azərbaycan dövlətçilik tarixində Yeni Azərbaycan Partiyasının rolu" mövzusunda tədbir keçirilib.***



Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri düzmüşlər. Sonra tədbir Masallı şəhər Heydər Əliyev Mərkəzinin akt zalında davam etdirilmişdir. Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev acmış, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik etmiş və bildirmişdir ki, "Azərbaycanın son illərdə əldə etdiyi uğurlar, qazandığı böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının, bilavasitə fəaliyyəti ilə bağlıdır. Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası müstəqilliyimizin qorunması və dövlətçiliyimizin möhkəmləndirilməsində mühüm rol oynayıb. Hazırda YAP-ın üzvlərinin sayının 700 mindən çox olduğunu bildirən Seyfəddin Əliyev deyib ki, partiyaya olan bu maraq Ulu Öndərin ideyalarına sədaqətdən, Möhtərəm Prezident İlham Əliyevə olan inam və etimaddan irəli gəlir.

Rayon təşkilatının sədri Seyfəddin Əliyev Yeni Azərbaycan Partiyasının siyasi kampaniyalarda əldə etdiyi uğurları xalqımızın Heydər Əliyev ideyalarına sadiqliyinin, həmçinin, Azərbaycan Prezidenti, partiyamızın Sədri İlham Əliyevə etimadının nümunəsi adlandıraraq, ölkəmizin qazandığı nailiyyətlərdə, rayon ərazisində aparılan abadlıq-quruculuq işlərində partiya fəallarının rolunu və xidmətlərini yüksək dəyərləndirib.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının şura üzvü, Prezident təqaüdçüsü Şirvan Əbilov çıxış edərək, diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycan xalqı və dövlətinin olduqca mürəkkəb vəziyyətlə qarşı-qarşıya olduğu bir şəraitdə xalqın istəyi və çağırışı ilə yaranıb: "Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan fəaliyyəti sayəsində Azərbaycan əsl müstəqilliyə qovuşdu, ölkədə ictimai-siyasi sabitlik bərqərar olundu və milli inkişafın əsası qoyuldu".

Masallı Ziyalılar Cəmiyyətinin sədri Qardaş Fətullayev çıxış edərək qeyd etdi ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyətini davam etdirən Yeni Azərbaycan Partiyası bu gün ölkə Prezidenti İlham Əliyevin Sədrliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyub. Tədbirdə rayon təşkilatının qadınlar şurasının sədr müavini Əntiqə Tağıyeva, gənclər birliyinin sədri Məmmədhüseyn Hüseynov və başqaları çıxış edərək Yeni Azərbaycan Partiyasının sıralarında təmsil olunan qadınlar və gənclərin dövlətçiliyimizə, Ulu Öndər Heydər Əliyev siyasətinə və bu siyasəti həyata keçirən Prezident İlham Əliyevə hər zaman sədaqətli olduqlarını bildiriblər.

**RƏFİQƏ**



## Yeni Azərbaycan Partiyası - 25 il

*YAP Xaçmaz rayon təşkilatı növbəti tədbirini keçirib*

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə bağlı YAP Xaçmaz rayon təşkilatının Akademik Zərifə Əliyeva adına 8 saylı məktəb - liseyi ərazi ilk partiya təşkilatında partiyanın 25 illiyi ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının şura üzvü Nurcahan Abasova açaraq, Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb: "Ümummilli Liderin bu tezisi ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayan, illər keçdikcə sıraları kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmlənən, ən başlıcası, milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının dünəninə, bu gününə və gələcəyinə bələdçilik edir. Gələcəyə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyası ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir."

Tədbirdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov isə bildirib ki, tarixi müstəqil Azərbaycanın tarixi ilə üst-üstə düşən Yeni Azərbaycan Partiyasının 25 ildə zəngin və şərəfli yol keçməsini şərtləndirən əsas amil sözlə əməl birliyidir. Bu baxımdan, YAP, həmçinin, iqtidar partiyası olaraq xalq hakimiyyət birliyinin bariz nümunəsidir

Tədbirdə ərazi ilk partiya təşkilatının sədri Tahir Şamxalov və başqaları çıxış edərək bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyir.

**R.HÜSEYNOVA**

# "Turbyern Yaqlandın açıqlamaları qurumun prinsiplərinə ziddir"

***Avropa Şurası Baş Katibi Azərbaycan məhkəməsi tərəfindən həbs olunaraq azadlıqdan məhrum olunan Real Hərəkatın sədri İlqar Məmmədovun azadlığa buraxılmayacağı təqdirdə Azərbaycana qarşı müəyyən sanksiyaların tətbiq olunması çağırışı ilə çıxış edib. Bu şəxsin Azərbaycana qarşı qərəzinin kökündə hansı səbəblər dayanır? Ümumiyyətlə, Baş Katibin, Avropa Şurası adından bu dərəcədə çıxış etməsinə kim səlahiyyət verib.***

**Politoloq**
Elçin Mirzəbəyli:




- AŞPA-nın Baş katibinin fikirləri, əlbəttə, bütövlükdə Avropa Şurasının mövqeyi kimi qəbul edilə bilməz. O, yalnız özünün subyektiv fikirlərini səsləndirə bilər. Bütövlükdə, Avropa Şurası, Parlament Assambleyasının da yaradılmasında əsas məqsəd, üzv dövlətlərin qanunvericiliyinin bir-birinə yaxınlaşdırılması, əməkdaşlıq perspektivlərinin genişləndirilməsidir. Yəni bu qurumların hər hansı birinin cəzalandırılma və rəy formalaşdırma statusu yoxdur. Bütün bunlar, həm inteqrasiya prosesinə mane olur, həm də beynəlxalq təşkilatların nüfuzdan düşmələrinə zəmin yaradır. Bu baxımdan, Avropa Şurasının baş katibi Turbyern Yaqlandın açıqlamaları qurumun özünün prinsiplərinə ziddir. Hansısa subyektiv mülahizələrə söykənərək, bu gün dünyada sülhün və əmin-amanlığın qorunub- saxlanması istiqamətində əməli mövqe nümayiş etdirən, beynəlxalq birliyin ən nizamlı üzvlərindən biri olan, multikultural dəyərlərin qorunduğu bir ölkəyə qarşı qeyri-obyektiv mülahizələr səsləndirir. Hesab edirəm ki, bu şəxsin subyektiv mövqeyinə qarşı Avropa Şurasının özündə də ədalətli bir mövqe səsləndiriləcək. Onun tərəfindən irəli sürülən subyektiv mülahizələrin hər hansı bir effekt verməyəcəyini düşünürəm. Hazırda ortada, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün pozulması və işğalçı mövcuddur. Əgər Avropa Şurası və onun rəhbərliyində təmsil olunan şəxslər işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi-köçkün vəziyyətinə düşən 1 milyondan artıq insanın hüquqlarının müdafiəsi ilə bağlı bir kəlmə söz açmırlarsa, bu, şübhəsiz ki, onların qeyri-obyektiv və ədalətsiz mövqeyindən, eyni zamanda, işğalçının maraqlarına xidmət etmələrindən xəbər verir. Azərbaycan torpaqlarının 20 faizindən çoxu işğal olunub, 1 milyondan çox insan özünün ən adi hüquqlarından məhrum olub. Ermənistanın bu işğal faktından Azərbaycan xalqının ziyan çəkməsi, azərbaycanlıların ermənilərin etnik təmizlənməsi siyasətinə məruz qalmaları ilə bağlı çoxlu sayda faktlar var və bu faktlar beynəlxalq birlik və ayrı-ayrı dünya dövlətləri tərəfindən də tanınıb. Bununla yanaşı, azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə bağlı Avropa Məhkəməsinin də qərarları var. Belə olduğu təqdirdə, Avropa Şurasının susması bu qurumun ikili standartlı fəaliyyətindən xəbər verir". Avropa Şurasının, xüsusilə, Türkiyə və Azərbaycana qarşı təzyiqlər etməsinin arxasında erməni diasporu dayanır. Digər tərəfdən, hər iki dövlətin bölgədə öz maraqlarından çıxış etməsi Avropa Şurasının ermənipərəst dairələrini ciddi narahat edir. Hər iki ölkənin, ilk növbədə, öz dövlət maraqlarını önə çəkdiyi, bu və digər dövlətlərin, eləcə də, güc mərkəzlərinin heç bir avantürist oyunlarında iştirak etmədikləri üçün də çox zaman bu cür adekvat addımlarla, həqiqətə uyğun olmayan davranışlarla, böhtan və yalanlarla qarşılaşırlar.

***Jurnalistlərin Həmkarlar İttifaqının sədri***
*Müşfiq Ələsgərli:*



- Azərbaycan Prezidenti hər il əfv sərəncamları imzalayır. Törətdiyi əməlin neqativliyini dərk edən və peşmançılıq keçirən, özünü intizamlı aparan, qanunlara hörmətlə yanaşan məhbuslar bu sərəncamlara əsasən, cəzalarının çəkilməmiş hissəsindən azad edilirlər. Sərəncamlar Azərbaycan Prezidentinin öz təşəbbüsü ilə, humanist aksiya olaraq reallaşdırılır. Bu, kimsənin təzyiqinin və təsirinin nəticəsi deyil. Nə Avropa Şurası, nə ATƏT, nə də başqa bir qurum Azərbaycana hədə gəlməklə, təzyiq göstərməklə bir nəticə əldə edə bilməz. Artıq dəfələrlə sübut olunub ki, Azərbaycan kimsənin təzyiqi ilə addımlar atmır, öz maraqlarına uyğun olan və vətəndaş mənafelərini ifadə edən addımlar atır. Heç bir məsələyə görə Azərbaycanla təzyiq dilində danışılması mümkün deyil, bunu Azərbaycan Prezidenti də dəfələrlə bəyan edib. Azərbaycanın alternativ yolları tükənməzdir və öz maraqlarını istənilən variantda qorumağa qadir ölkədir. Təəssüf ki, bəzi beynəlxalq təşkilatlar hələ də bu reallıqla barışmaq istəmirlər və barışa bilmirlər. Hələ də təzyiq, hədə yolu ilə nələrsə etmək fikrində olanlar var. İndi aydın olur ki, bu, onların öz təşəbbüsləri də deyil. Bu beynəlxalq statuslu təşkilatlar hansısa güclərin və hansısa dövlətlərin əlində oyuncağa çevriliblər. Regionumuzda marağı olan, Azərbaycanı təsir dairəsinə salmaq istəyən güclər bu cür beynəlxalq təşkilatlardan da istifadə edirlər, öz maraqlarını onların vasitəsilə gerçəkləşdirmək istəyirlər. İnsan haqları anlayışı bu güclərin və təşkilatların əlində bəhanədən başqa bir şey deyil. Əgər onlar insan haqları məsələsində haqlı olsaydılar, öncə 1 milyon qaçqının öz yurd-yuvalarına dönmək haqlarının təmin olunmasına çalışardılar, valideynlərinin məzarını ziyarət edərkən, girov götürülən Dilqəm Əsgərovun Ermənistan əsirliyindən qurtarmasına yardım edərdilər. Yalnız bundan sonra ayrı-ayrı fərdlər üzərində fokuslaşsaydılar, onların səmimiyyətinə inanmaq olardı. İndiki halda onların çağırışlarında və istəklərində heç bir səmimiyyət görünmür. Bunu, hətta yalandan da olsa, müdafiə etmək istədikləri şəxslərin açıqlamaları da göstərir. İlqar Məmmədov bir neçə gün əvvəl yaydığı bəyanatda beynəlxalq təşkilatları ittiham etmişdi və onları oyuncaq təşkilatlar kimi səciyyələndirmişdi.

**GÜLYANƏ**

# Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi

## *Rəqəmlər və perspektivlər*

***Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin yarımillik monitorinq və qiymətləndirilməsini əks etdirən rəqəmlər ictimailəşdirilib. Təqdim edilən sxemdə bütün sahələr üzrə ümumi nəticə və hədəflər əks etdirilib. Göstərilən rəqəmlərdən də aydın olur ki, hesabatın nəticələri özündə bir sıra uğurları əks etdirir.***

Belə ki, 2017-ci ilin ilk altı ayı ərzində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin 32 faizinin icrası tamamlanıb, 59 faizinin icrası üzrə işlərə başlanılıb. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi məqsədilə, büdcə qaydalarının parametrləri beynəlxalq təcrübə nəzərə alınmaqla, müəyyənləşdirilib və büdcə qaydalarının tətbiq olunacağı təqdirdə, dövlət və icmal büdcə göstəricilərinə təsiri və yarana biləcək risklər təhlil edilib, o cümlədən, proqnoz göstəriciləri hazırlanıb. Avropa İttifaqı və Dünya Bankı tərəfindən təqdim olunan hesabatlar nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcə mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanıb. Makroiqtisadi koordinasiya təmin edilib, məzənnə rejiminin çevikliyi artırılıb.

Beləliklə, 2017-ci ilin ilk altı ayı ərzində "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin 11 faizi icra edilib, 40 faizinin isə icrasına başlanılıb. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin yanvar-iyun aylarında kənd təsərrüfatı məhsullarının istehsalı 2,2 faiz, o cümlədən, bitkiçilik məhsullarının istehsalı 1,7 faiz, heyvandarlıq məhsullarının istehsalı 2,6 faiz artıb. Əkinlərin ümumi sahəsi isə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 26,1 faiz artırılıb. Bununla bağlı Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması ilə əlaqədar təkliflər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilib. Qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. "Qida təhlükəsizliyi haqqında" qanunun layihəsi və "Azərbaycan Respublikasında qida təhlükəsizliuinin təmin olunmasına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın layihəsi hazırlanıb.

"Azərbaycan Respublikasında maldarlığın intensiv inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın və "Azərbaycan Respublikasında örüş-otlaq sahələrinin və biçənəklərin səmərəli istifadə olunmasına dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın layihəsi hazırlanıb.

Toxumçuluq haqqında Azərbaycan Respublikasının yeni qanun layihəsi beynəlxalq ekspertlərlə birgə işlənilib müzakirəyə təqdim edilib. O cümlədən, kənd təsərrüfatı sığortası haqqında yeni qanun layihəsi hazırlanaraq rəy bildirilməsi üçün müvafiq dövlət orqanlarına təqdim edilib. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 2017-ci ilin 6 ayı ərzində 2 aqroparka 11,5 milyon manat güzəştli kredit vəsaiti ayrılıb. Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi üçün dünya təcrübəsi araşdırılmışdır və işçi qrupun iclasında bununla bağlı təkliflər irəli sürülüb.

Yerli istehsalın dəstəklənməsi və daxili bazarın qorunması məqsədilə Respublikamızla sərbəst ticarət sazişi olmayan ölkələrin üstünlük təşkil etdiyi bir sıra malların (pomidor, xiyar) idxalına tətbiq olunan gömrük rüsumlarının 2 il müddətində artırılmasını nəzərdə tutan qərar layihəsi hazırlanaraq, məktubla Nazirlər Kabinetinə təqdim olunub. Kənd təsərrüfatı istehsalı üçün verilmiş torpaq sahəsindən, ardıcıl olaraq, 3 il ərzində üzrlü səbəb olmadan istifadə edilmədikdə, həmin torpaq sahəsi üzərində istifadə hüququna xitam verilməsi əsasının yaradılması üçün Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 73-cü maddəsinə əlavə edilməsi barədə qanun layihəsi hazırlanıb və Nazirlər Kabinetinə təqdim edilib. "Aqrolizinq" ASC tərəfindən 3525 kənd təsərrüfatı texnikası, o cümlədən, 9 taxılyığan kombayn, 9 pambıqyığan kombayn, 681 traktor və 2826 digər texnika 525 hüquqi və fiziki şəxsə lizinqə verilib və ya lizinq yolu ilə satılıb. Sumqayıt şəhərində yerləşən Karbamid Zavodunun tikintisi də davam etdirilməkdədir. Ölkənin aparıcı



şirkətlərindən biri ilə Azərbaycan Dövlət Aqrar Universiteti və Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Bundan əlavə, digər şirkətlər ilə əməkdaşlıq sahəsində də memorandumun imzalanması gözlənilir.

"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin fəaliyyətinin səmərəli təşkili üçün yeni regional bölmələr, anbarlar, dayaq məntəqələri və logistika infrastrukturu yaradılıb. Kənd Təsərrüfatı üzrə Elektron Qiymət İnformasiya Portalı (www.aqrarbazar.az) hazırlanıb, eləcə də, kənd turizminin inkişaf etdirilməsi və fəaliyyətinin dəstəklənməsi məqsədilə, yeni elektron portal (www.ruraltourism.az) yaradılıb. "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə ümumilikdə 79 şirkətin iştirakı ilə 5 ölkəyə ixrac missiyaları həyata keçirilib. Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mövcud qanunvericilik beynəlxalq ekspertlərin texniki yardımı ilə qiymətləndirilib, qanunvericilikdə dəyişikliklərə dair müvafiq tövsiyə və təkliflər hazırlanıb.

Ölkəmizin 20 rayonunda torpaqların elektron kadastr uçotu işləri yekunlaşdırılıb və ya çöl ölçmə işləri, əsasən, tamamlanıb. Eyni zamanda, 7 rayonda torpaq uçotu məqsədilə ölçmə işləri davam etdirilir. Şəkər çuğunduru istehsalçılarına əkin sahəsinə görə verilən subsidiyanın ləğv edilərək, şəkər çuğundurunun emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilib, şəkər çuğundurunun miqdarına (son məhsula) görə subsidiyanın verilməsi qaydalarının layihəsi hazırlanaraq təsdiq edilib. Kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun güzəştli satışı ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanıb. Beynəlxalq tərəfdaşlarla birgə regionlarda icma səviyyəli gəlirgətirən layihələr icra olunub. Eyni zamanda, kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramı layihəsinə təkliflərin verilməsi məqsədilə müvafiq dövlət qurumlarına və yerli icra hakimiyyətlərinə məktublar göndərilib.

Əsas problemlər: 1. Bir sıra tədbirlər üzrə işlər sürətlə və Strateji Yol Xəritəsində müəyyən edilmiş qaydada aparılmır. 2. Dövlət-özəl tərəfdaşlığının inkişafı istiqamətində işlər sürətlə aparılmır.

Tövsiyələr: 1. Bir sıra tədbirlər üzrə icra müddətinin uzun olmasına baxmayaraq, ümumilikdə, nəzərdə tutulmuş hədəflərin icrasına nail olmaq məqsədilə işlər sürətləndirilə bilər. 2. Dövlət-özəl tərəfdaşlığının inkişafı üçün dəstək mexanizminin müəyyən edilməsi istiqamətində işlər sürətləndirilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan dünyanın iqtisadi mərkəzinə çevrilib

## *Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın iki pillə irəliləməsi, həm də ondan xəbər verir ki, digər mötəbər reytinqlərdə də ölkəmizin mövqeləri daha da güclənəcək*




***Beynəlxalq aləmin ən reytinqli iqtisadi təşkilatı olan Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan daha iki pillə yüksələrək, 35-ci yerdə qərarlaşıb. Dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq, MDB-də liderliyini qoruyan Azərbaycan, hətta G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası kimi ölkələri də iqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə qabaqlayır.***

Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqində irəliləməsi, bilavasitə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli Sərəncamından sonra bu sahədə ölkədə görülən kompleks işlər, xüsusilə, vurğulanmalıdır. Sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitini yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi bunun bariz nümunəsidir. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı" reytinqində 35-ci yerə yüksəlməsi kimi böyük bir qiymətləndirmə, Azərbaycan dövlətinin və şəxsən onun Prezidentinin ölkədə iqtisadiyyatın çoxşaxəli olmasına, regionların və sahibkarlığın inkişafına göstərilən qayğısı nəticəsinə mümkün olub.

### *Azərbaycanın iqtisadiyyatı möhkəm təməl üzərində qurulub*

Öz təbii resurslarına söykənərək, müstəqil daxili və xarici siyasətini yürüdərək, 35-ci yeri tutması dünyada inkişafın bir Azərbaycan modelinin yarandığını, Azərbaycan standartlarının dünya tərəfindən, doğrudan da, qəbul olunan standartlar olduğunu göstərir. Yüksək dinamik inkişaf tendensiyası, həm də ondan xəbər verir ki, ölkəmiz "Böyük 20-lik" ölkələrindən biri olacağı, həttə birincisi olacağı tezliklə reallaşacaq və vaxt gələcək, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Azərbaycan dünyaya bir günəş kimi doğacaq" Digər tərəfdən, dünyada maliyyə və iqtisadi böhranın baş verdiyi bir ərəfədə Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı" reytinqində irəliləmə, Azərbaycan iqtisadiyyatının heç bir maneəyə baxmadan sürətlə inkişafından xəbər verir. Danılmazdır ki, belə bir böhran şəraitində Azərbaycan, nəinki öz iqtisadi göstəricilərini qoruyub-saxlayır, hətta aparılan islahatlar, Prezident İlham Əliyevin uzaqgörən və məntiqli siyasəti nəticəsində bu göstəricilər daha da yaxşılaşır. Bütün bunlar, onu deməyə əsas verir ki, ölkənin inkişaf modeli düzgün qurulub və Azərbaycanın iqtisadiyyatı möhkəm təməl üzərində olduğundan, hər cür sınaqlardan uğurla çıxmağa qadirdir. Elə bu səbəbdən də, xalqın rifahının yüksəlməsinə xidmət edən bu siyasət, bu iqtisadiyyat, bu inkişaf daim xalq tərəfindən dəstəklənir və Prezidentin verdiyi tapşırıqlar xalqın dəstəyi və köməyi ilə uğurla yerinə yetirilir.

### *Dünya İqtisadi Forumunun hesabatı ölkəmizin mövqeyinin daha da yaxşılaşmasından xəbər verir*

Neftin qiymətinin dünya bazarında aşağı olduğu bir dövrdə Azərbaycanın rəqabət qabiliyyətinin yüksək olması və bunun dünyanın ən aparıcı iqtisadi forumu tərəfindən qiymətləndirilməsi təqdirəlayiqdir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlara beynəlxalq qiymət kimi də xarakterizə edilə bilər. Neft gəlirlərinin azaldığı bir dövrdə rəqabətqabiliyyətli ölkə mövqeyinin qorunub-saxlanması, həttə gücləndirilməsi, Azərbaycanda artıq qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatlardan və ölkənin investisiya mühitinin daha da yaxşılaşmasından xəbər verir.

Sirr deyil ki, aparıcı şirkətlər investisiya qərarı verən zaman hesabatlarda ölkələrin mövqeyinə diqqət yetirirlər və bu baxımdan, Dünya İqtisadi Forumunun hesabatı ölkəmizin mövqeyinin yaxşılaşması, həm də Azərbaycanda investisiyanın cəlbi və ölkənin mövcud potensialının təqdim edilməsi baxımından çox vacibdir. Belə ki, bu qiymətləndirmə xarici investorların mövcud potensialını təqdim etməsinə, xüsusilə də, qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsinə zəmin yaradır.

Azərbaycanın qazandığı bu nailiyyət sosial-iqtisadi inkişafın davam etdiyinin göstəricisi və Prezident İlham Əliyevin sistemli iqtisadi siyasət kursunun məntiqi nəticəsidir. "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın mövqeyinin irəliləməsi dövlətimizin başçısının apardığı kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir.

***İnam HACIYEV***

# 5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür



***Bu gün dünya ictimaiyyətinin hər zaman məhəbbətlə qarşıladığı və daim qəlbində gəzdirdiyi müəllimlərin peşə bayramı, Beynəlxalq Müəllimlər Günüdür. 5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən verilib. Bu təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramlarını qeyd edirlər. Bu bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir.***

> *"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram"*
>
> *Ümummilli Lider Heydər Əliyev*

Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla insanlara əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünün göstərə bilmişdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir. Bu cur məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan elə müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə ölçüyə gəlməyən bir nümunəsidir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram", - deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır.

Dünyanın qavranılması elmdə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Həyatı, yazıbyaratmağı öyrədən müəllliminə mənən borclu olduğuğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bu sözgəlişi deyilən fikirlər deyil, bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyələri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Əgər müəllim özünü tərbiyə edib,özündə kamil insani sifətləri aşılayıbsa, demək, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Hər bir pedaqoqun qarşısında duran başlıca məqsəd dərsin səmərəli təşkili və mövzuların şagirdə yüksək səviyyədə mənimsədilməsidir. Bəs görəsən, hər bir müəllim bu nailiyyəti istədiyi səviyyədə əldə edə bilirmi? Araşdırmalar sübut edib ki, pedaqoq nə qədər savadlı olsa belə, dərsin keyfiyyətinin əsasını təşkil edən amil sinifdəki strategiyanın düzgün qurulmasıdır. Elə isə mütəxəssislərin araşdırması sayəsində müəllimlər üçün müəyyən olunan qızıl qaydalar tətbiq olunub.

Əgər bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, demək, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

Bu gün ölkəmizdə aparılan yenidənqurma işləri, iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar təhsilin inkişafına birbaşa təsirini göstərir. Təhsilin səviyyəsi keyfiyyət baxımından, yeni mərhələni yaşayır. Müasir gənclik sabit ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkərək, Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Ümummilli Lider Heydər Əliyevin milli təhsil quruculuğu strategiyası Prezident İlham Əliyev tərəfindən ölkənin tərəqqi və inkişafına zəmin yaratdı. Bu gün Heydər Əliyevin maarifçilik ideyalarını Prezident İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva əzmlə və uğurla həyata keçirir.

Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Təsadüfi deyil ki, XXI əsr Azərbaycanında əsl təhsil bumu yaşanır. Son illərdə ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəblər tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici haldır ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir.

Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə öz mükəmməlliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, həmin təhsil müəssisələrinin əyani vəsaitlər və şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni və müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir və tədrisin səviyyəsini yüksəldir.

Təhsil işçilərinin əməkhaqlarının artırılması, onların mükafatlandırılmaları, fəxri adlarla təltif edilmələri, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar da təhsil işçiləri üçün böyük stimul olmaqla yanaşı, həm də onların məsuliyyətini artırır.

Diqqət etsək, görərik ki, cəmiyyətin inkişafında müəllimin əməyi böyükdür. O, gələcəyin vətəndaşını yetişdirir. Gələcəyin inkişafı da, tərəqqisi də bugünkü məktəblinin - gələcəyin gəncliyinin əlindədir. Bu gün müəllimlər işə qəbul üçün müsabiqədən keçirlər. Əlbəttə ki, bu proseslərdən keçən müəllim savadlı olaraq yeni texnologiyanı tam qəbul edən müəllim kimi fəaliyyətə başlayır. Azərbaycanda təhsilə verilən qiymət və diqqət artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb.

Gələcəyin inkişafı onun təhsilindən başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Buna görə də məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Müstəqil Azərbaycan iyirmi birinci yüzillikdə qlobal inteqrasiya mexanizminə qoşulmuş sivil, demokratik dövlət kimi inkişafını elm və təhsildən kənarda görmür, bu sahələrin inkişafına daim xüsusi diqqət yetirir.

Bu gün dərindən fikirləşsək, görərik ki, cəmiyyətdə müəllimin əməyi böyükdür və gələcəyin inkişaf etməsində və tərəqqisində bugünkü şagirdlərin böyük rolu olacaq. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Vətənə layiqli vətəndaş yetişdirən müəllimin əməyi çox böyük olduğundan, onun bu peşədən qürur duymağa və fəxr etməyə haqqı var.

***ZÜMRÜD***

## Təhsil Nazirliyi Dünya Əqli Mülkiyyət Təşkilatı ilə əməkdaşlıq edəcək

Oktyabrın 3-də Cenevrəyə səfər çərçivəsində təhsil naziri Mikayıl Cabbarov Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) baş direktoru Fransis Qarri ilə görüşüb. Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə, həmçinin Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov, Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov iştirak ediblər. Görüşdə Azərbaycan ilə DƏMT arasında gələcək tərəfdaşlıq, ali təhsil müəssisələrində əqli mülkiyyət siyasətinin formalaşdırılması və inkişafının təşviqi, ali təhsil müəssisələrinin əqli mülkiyyət sistemindən istifadə imkanlarının gücləndirilməsi məsələləri müzakirə olunub. Görüşün sonunda M.Cabbarov və F.Qarri Birgə bəyanat imzalayıblar. DƏMT ilə əməkdaşlıq ali təhsil müəssisələrinin iqtisadi sahə ilə sıx inteqrasiyasına, o cümlədən "start-up"ların inkişafına yönəlmiş ekosistemin qurulmasına yeni imkanlar yaradacaq.

# Ucuz şoularla gündəmdə qalan "Milli Şura"

## AXCP ilə "Milli Şura"nın rüsvayçılıq yolu

**AXCP və "Milli Şura" rəhbərliyinin, uzun müddət idi ki, mitinq ehtiraslarını sentyabrın 23-də keçirilən uğursuz aksiyada da söndürə bilmədilər. Bu biabırçılıqdan sonra yenidən mitinq keçirmək abırsızlığın, deyərdim ki, həm də Əli Kərimli-Cəmil Həsənli həyasızlığının növbəti təzahürüdür.**



Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov "Milli Şura"nın keçirdiyi mitinqə münasibət bildirərkən, bu keçirilən mitinqin əvvəlkindən də biabırçı olduğunu söyləyib: ""Milli Şura"da birləşən müxalifətin prezidentliyə namizədi Cəmil Həsənlinin bu gün keçirdiyi mitinq-görüşü bundan əvvəlkindən də biabırçı formada oldu".

S. Novruzov qeyd edib ki, mitinq uğursuz alınıb: "Demək olar ki, keçəndəfəki mitinqdən iki dəfə az insan toplaşmışdı. Bundan başqa, mitinq həm sönük, həm də çıxışların hər biri bayağı idi. İsa Qəmbər çıxış edəndə isə insanların bir hissəsi meydanı tərk elədi. Eyni zamanda, "Milli Şura"da olanların bir-birinə qarşı olan hikkələri, nifrətləri də burada özünü göstərdi. Ümumilikdə, onu demək olar ki, növbəti mitinq keçirsələr, ora adam gəlməyəcək. Beş-üç nəfər həvəskar cavandan başqa, orada adam görmək olmur. Sosial bazaları necə də tükənib! Mitinqdə o qədər təşkilat adı hallandırdılar ki, o təşkilatların adı orada yığışanların sayından çox idi. Adlarını çəkdikləri təşkilatların hərəsindən bir nəfər gəlsəydi, min-min beş yüz nəfər yığışmış olardı. Amma o da yox idi".

YAP rəsmisi müxalifətin mitinqlərinin belə olmasını manealərlə deyil, sosial bazalarının olmaması ilə izah edib: "Bu günə qədər bunlar cəmi bir dəfə Ağstafada görüş keçirmək istəyiblər, onda da Eldar Namazov gedib qəbiristanlıqda qohum-əqrəbasını ziyarət edib, qayıdanda da, restoranda yeyib-içib Bakıya dönüb. Burada keçirdikləri iki mitinqin də getdikcə birinin əvvəlkindən uğursuz alınması göstərdi ki, əvvəldən onsuz da sosial bazası olmayan bunların aldadıb yoldan çıxartdıqları beş-on adam da gördülər ki, bunlardan heç nə çıxmır. Ortada olan qohum - əqrəbaları, partiya işçiləri, qəzetlərinin nümayəndələrini bura yığıblar".

### Əli Kərimli - Cəmil Həsənli cütlüyünün reallıqları budur!

Mitinq məkanının "İnşaatçılar" metro stansiyasının bir addımlığında yerləşən "Məhsul" stadionunun boş qalması ilə yanaşı, aksiyaya gələnlərin çoxunu sanki Ə.Kərimli ilə C.Həsənlinin qohum-əqrəbası təşkil etmişdi. Ən maraqlısı isə, azyaşlı uşaqların da orada olması idi. Adamdan soruşarlar ki, uşaq-muşağın mitinqə gəlməsi nəyə dəlalət edir? Neyləsinlər? Dəlalət etməsi bəllidir. Sosial bazaları sıfıra bərabər olan "Milli Şura"ilə AXCP meydana kimləri çıxırtmadılar? Elə, məsələ də budur ki, danışanda ağızlarına çullu dovşan da sığışmayan Ə.Kərimli və C.Həsənli cütlüyünün reallıqları budur!

İndi də uşaqlardan keçək mini aksiyaya radikal islamçıların qatılmasına. Mitinqə qatılan 10-15 nəfərə yaxın gənclər əllərində "İŞİD"-in bayrağını başları üstə qaldırmaqla bir daha əqidə və məqsədlərini nümayiş etdirmiş oldular. Çünki bu hərəkətləri ilə terrorçu "İŞİD"-çilərdən heç bir fərqləri olmadığını bir daha təsdiqləmiş oldular. Elə, bu səbəbdən də, son günlər Ə.Kərimliyə qarşı etirazlar səngimir. Belə ki, sosial şəbəkələrdə ardıcıl olaraq qarşılıqlı ittihamların olması və istefaların artması deyilənlərin təzahürüdür. Məhz bunun səbəbidir ki, son iki həftədə AXCP sıralarından Ə.Kərimlini müdafiə edən ən fəal üzvlərdən 3 nəfər istefaya gedib. İstefa verənlər bildirirlər ki, Ə.Kərimlini ancaq şəxsi maliyyə məsələsi maraqlandırır. Hər halda, bundan sonra "Milli Şura"-AXCP cütlüyü mitinq keçirəcəyi ilə bağlı fikir bildirəcəksə, demək, "mühacir biznesi"nin növbəti mərhələsinin vaxtının çatdığı bəlli olacaq. Amma Ə.Kərimli bunun bədəlini partiyasında olan-qalan insanların da istefaları ilə ödəməli olacaq.

Necə deyərlər, onun maddiyyat nəfsi siyasi nəfsini üstələməyə başlayacaq.

**Rəfiqə HÜSEYNOVA**

TƏRS BAXIŞ

**AXCP sədri Əli Kərimli "Milli Şura"nın ötən aksiyasında üzləşdiyi uğursuzluqdan və rüsvayçılıqdan sonra siyasi xilasını dindar kəsimdə axtarmağa başlayıb.**



Daha dəqiq desək, o, bu dəfə də barmaqlarının gücünü verib klaviaturaya və feysbuk sosial şəbəkəsi vasitəsi ilə inanclı kəsimi "siyasi məhbus"ların azadlığa çıxması üçün fəal olmağa, keçirmək istədiyi aksiyasına qatılmağa səsləyib. Lakin ortada bir maraqlı nüans diqqətdən yayınmayıb. Məsələ ondadır ki, palaz müraciətində əvvəlcə dindarlara dəstək verməyi çağırışı ilə çıxış edən Ə.Kərimli sonradan yavaş-yavaş məsələni tamamilə əks-istiqamətə çevirərək, "Milli Şura"nın məlum səbəblərə görə həbs olunmuş üzvlərinin azad olunması vacibliyindən yazıb (?-R.R.).

"Meydan TV"nin Aşura dini mərasiminə qarşı şəkillər paylaşmasının ardınca, bir çox inanclı insanın fikri diqqət çəkib. Məsələn, Rəşad Yusifli adlı inanclı şəxs yazır: "Möminlər də 7 oktyabr mitinqinə hazırlaşırlar... Gör kimin arxasınca !!!"

İlkin Məmmədov adlı dindar isə qeyd edir: "Kərbəlayi, bunlar başlarından başqa, haraları ilə desən fikirləşərlər. Bunlara qarşı sən saydığını say, mən təharətə (yəni ayaq yoluna-R.R.) gedib-gələcəm prinsipinə əsasən, yola ver getsin kampaniyasından istifadə eləmək lazımdı. Belələrinə baş qoşmaq, boş vaxt itkisindən başqa bir şey deyil, ona görə də boş vaxt sərf edincə, bir dənə mərsiyə oxu özün üçün".

Taleh Əsmərov adlı inanclı yazır: "Meydan TV yox, şeytan TV!".

İsmayıl Əhmədov adlı feysbuk istifadəçisi isə daha sərt fikir bildirib: "And olsun Allaha ki, bunların ya anası xarabdı, ya da ataları. O ki qaldı İmam Hüseyni tanımayalar".

Göründüyü kimi, mitinqi üçün özünü dindarlara yaxın göstərməyə çalışan AXCP sədri Ə.Kərimlinin çağırışları nədənsə "Meydan TV" tərəfindən "vurulub". Burada isə digər maraqdoğurucu faktların olması şübhəsizdir. Çox yəqin ki, ötən mitinqdə "Milli Şura" ilə "Meydan TV" aralarında nəyisə bölə bilməyiblər. Bu baxımdan, dini inanclıların baxışlarına rişxənd edən "Meydan TV" həmin vasitə ilə Ə.Kərimlidən söz almağa çalışır. Ortada isə məlum faktlar və Ə.Kərimlinin ətrafında yaşanan bəlli rüsvayçılıqlar qalır.

Əgər nəzərə alsaq ki, ötən aksiyada Ə.Kərimlinin "sağdışı" Gültəkin Hacıbəylinin Azərbaycan Ordusu və əsgər-zabit heyəti barədə dediyi fikirləri dərhal Ermənistan mediasında yayımlandı, bu zaman bəzi inancların hələ də düşmənin dəyirmanına su tökən Ə.Kərimlinin yanında vurnuxmaları anlaşılan deyil.

Hər halda, görünən dağa nə bələdçi?..

## Əli Kərimli dindarları aksiyaya dəvət etsə də...

*"Meydan TV" isə dini mərasim keçirənləri təhqir etdi*

### Əli Kərimlinin oyunlarına gedən və getməyən dindarlar...

Söz yox ki, AXCP sədri burada, bilavasitə şəxsi məqsədlərini güdür və inanclı kəsimi öz tərəfinə çəkmək cəhdi də buna görədir. Daha dəqiq desək, Ə.Kərimlinin kirli ambisiyasından və satqınçılıq xislətindən irəli gələn məsələ də budur ki, o, Nadaran hadisələrinin, bilavasitə təşkilatçısı Taleh Bağırzadənin həbsindən siyasi maraqları üçün istifadə edir. Bəzi dindarlar isə bu oyuna gedərək, özlərini digər dindarlar, yəni Ə.Kərimlini rədd edənlər qarşısında rüsvay edirlər. Çünki ortada digər bir vacib nüans da var.

Sirr deyil ki, hazırda Almaniyada fəaliyyət göstərən və xarici dairələrlə iş birliyi qurmaqla Azərbaycan əleyhinə işləyən "Meydan TV" də AXCP sədri Ə.Kərimlinin çirkin siyasətini dəstəkləyən, onunla əlbir olan müxalifətyönlü media qurumudur. "TV"-nin Ə.Kərimlinin dindarları mitinqə çağırması ərəfəsində şəkil paylaşması, eləcə də, dini mərasimi ələ salan fikirlər yazması, həmin fikrin sosial şəbəkədə ictimailəşdirməsi vəziyyəti AXCP sədrinin əleyhinə işləyib. Artıq onun çağırışının ardınca gedənlər, vaxtilə dəstək göstərənlər indi əks-mövqe sərgiləməyə başlayıblar.

### Dindarlar Əli Kərimlini rədd edirlər - Ona görə də boş vaxt sərf edincə bir dənə mərsiyə oxu özün üçün...

**Rövşən RƏSULOV**

## Kimlər daha çox zorakılığa məruz qalır?



"Aparılan təhlillər göstəri ki, az təhsilli və iqtisadi asılılığı olan qadınlar daha çox zorakılığa məruz qalırlar. Buna görə də qadınların, xüsusilə kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakı daha da gücləndirilməlidir" SİA-nın məlumatına görə, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova məişət zorakılığı ilə bağlı elektron məlumat bankının təqdimatında çıxış edərkən deyib. Onun sözlərinə görə, bu məqsədlə Komitə BMT-nin İnkişaf Proqramı ilə birlikdə işlər aparır: "Araşdırma nəticəsində məlum olub ki, bir çox uşaqlar təhsildən yayınıb. Biz belə halların qarşısının alınması sahəsində preventiv tədbirləri daha da gücləndiririk. Zorakılığın qarşısının alınması Ailə İnstitutunun möhkəmlənməsi deməkdir. Məhz bu baxımdan zorakılığa məruz qalan ailə üzvlərinə psixoloji, tibbi, hüquqi yardımın göstərilməsi vacibdir. Erkən nikahlar, gender əsaslı zorakılıq, məişət zorakılığı sahəsində hələ çox işlər görülməlidir".

## DİN: Şamaxıda xilas edilən turistlər Rusiya vətəndaşları Yuri Sıvarnik və Olqa Juravlyovadır

Daxili İşlər Nazirliyi (DİN) oktyabrın 3-də saat 11 radələrində Şamaxı rayonunun Pirbəyli kəndinin dağlıq ərazisində köməksiz vəziyyətdə qalan Rusiya vətəndaşlarının adlarını açıqlayıb.

DİN-dən AZƏRTAC-a bildiriblər ki, Rusiya Federasiyasının vətəndaşları olan turistlər - Yuri Sıvarnik və Olqa Juravlyova havanın yağışlı olması və dağ yolunun yararsız hala düşməsi ilə əlaqədar idarə etdikləri "Nissan Patrol" markalı avtomobildə köməksiz vəziyyətdə qalıblar. Onların olduğu yer Şamaxı Rayon Polis Şöbəsinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən müəyyənləşdirilib və turistlər xilas edilərək Bakıya yola salınıblar.

## Eldar şamını kəsdi, 2550 manat cərimələndi



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Qaynar xətt"inə Qaradağ rayon sakini Nizami Cəfərov tərəfindən Qaradağ rayonu, Ələt qəsəbəsi, Hərbi şəhərciyin ərazisində ağacların qanunsuz kəsilməsi ilə bağlı şikayət daxil olub. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, şikayət nazirliyin əməkdaşları tərəfindən Ərazi üzrə Mənzil İstismar Sahəsinin nümayəndələrinin və şikayətçinin iştirakı ilə yerində araşdırılıb. Sözügedən əraziyə keçirilən baxış zamanı yaşkökücstə 49 sm diametrliyində 1 Eldar şamı ağacının qanunsuz kəsildiyi məlum olub. Aparılan araşdırma zamanı ağacın Qaradağ rayonu, Ələt qəsəbə sakini Rəşad Fərzəliyev tərəfindən kəsildiyi və təbiətə 2550 manat məbləğində ziyan vurulduğu müəyyən edilib. Faktla bağlı qanun pozucusu barəsində protokol tərtib olunub. Dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından qanun pozuntusu ilə bağlı toplanmış materiallar məsələyə hüquqi qiymət verilməsi və təqsirkar barəsində qanunamüvafiq tədbirlərin görülməsi üçün Qaradağ rayon Prokurorluğuna göndərilib.

# Ulu Öndər Heydər Əliyevin təhsilə aid müdrik kəlamları

***Ulu Öndər Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində təhsilin bütün səviyyələrinə - orta, ali, aspirantura (doktorantura) diqqət vermiş və onun inkişafına qayğı göstərmişdir. Bu barədə O dahi şəxsiyyət demişdir: "Mən Azərbaycanda daha bir universitet-beynəlxalq universitet yarada bildim. Adətən, ən böyük ali məktəb hər il 700-800, bəziləri 400-500 adam qəbul edir. Əgər o vaxtlar Azərbaycanda mövcud olan 17 ali məktəbdən əlavə, biz Sovetlər İttifaqının müxtəlif ali məktəblərinə hər il 800-900 adam göndərirdiksə, deməli, biz daha bir universitetə, lakin istər ixtisaslar üzrə çox profilli, istərsə də, əlbəttə, səviyyəcə yüksək olan əlavə bir universitetə malik idik. Bütün bunlar nəticə etibarı ilə Azərbaycan üçün yüksəkixtisaslı kadrlar hazırlanmasına xidmət edirdi.***

XX əsrdə, sözün geniş mənasında, ölkəmizdə Azərbaycan məktəbi yaranıbdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Bu, ən böyük nailiyyətlərimizdən biridir. İqtisadiyyat da, həyatın başqa sahələri də bunun üzərindədir. Əgər bizim yüksək səviyyəli məktəbimiz olmasaydı, əgər bütün gənclər, uşaqlar icbari təhsilə cəlb edilməsəydi, əgər ilbəil yüksək səviyyəli müəllim-professor kadrları hazırlanmasaydı, əgər elmimiz inkişaf etməsəydi, biz indi nə bu iqtisadi potensiala, nə elmi potensiala, nə sosial potensiala, nə də təhsil potensialına malik ola bilməzdik. Ona görə də, bunları unutmaq olmaz və onları qiymətləndirmək, onlarla fəxr etmək lazımdır".

Ulu Öndərin fikrincə, hər hansı bir dövlətin inkişafı onun təhsilinin, elminin və mədəniyyətinin dünya standartları səviyyəsinə çatmasından asılıdır.

Həssas bir sahə kimi təhsilin inkişafına qayğı göstərən Ulu Öndər Azərbaycanın orta və ali məktəblərində gənclərin gələcəyə hazırlanmasını diqqətə çəkirdi: " İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır.

Hər bir insan gərək, eyni zamanda, vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə, ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun.

Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də, gərək mənəvi saflıq ali məktəbdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də, gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bunun da hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır".

Bir sözlə, Azərbaycan təhsili təkcə savad vermək deyil, vətənpərvərlik, vətəndaşlıq aşılamalı və cəmiyyətin ləyaqətli üzvünü yetişdirməlidir.

Azərbaycanın məktəbi, təhsili və müəllimləri ilə fəxr edən Ulu Öndər Heydər Əliyev XIX əsrin ikinci yarısından Azərbaycanda reallaşan dünyəvi təhsilin uğurlarından söhbət açmaq, təhsilin inkişafında Qori Müəllimlər Seminariyasının, Azərbaycanda fəaliyyət göstərən Qazax Müəllimlər Seminariyasının özünün təhsil aldığı Bakı Dövlət Universitetinin, eləcə də, Naxçıvan Dövlət Universitetinin fəaliyyətini yüksək qiymətləndirmişdir: "Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir.

Bakı Dövlət Universiteti Azərbaycan elminin inkişafına olduqca güclü təsir göstərmişdir. O, yarandığı ilk dövrdən Azərbaycanda Elmi-Tədqiqat Mərkəzinə çevrilmişdir.

Qazax Müəllimlər Seminariyasının xalqımızın mədəni həyatında oynadığı böyük rol danılmazdır. Onun təməli üzərində neçə-neçə təhsil ocaqları yaranıb-inkişaf etmişdir. Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla, adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir.

Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olması, məhz Bakı Dövlət Universitetinin fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Zəngin mədəniyyət və təhsil ənənələrinə malik olan Azərbaycan müsəlman Şərqində dünyəvi təhsilin gerçəkləşdiyi ilk ölkələrdən biri olmuşdur.

Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır.

XX əsri sona vuraraq, öz dövlət müstəqilliyimizi, milli azadlığımızı əldə edəndən sonra sərbəst yaşayaraq, fəxr edə bilərik ki, bizim millətimiz, xalqımız biliklidir, təhsillidir və bu barədə dünyanın hər bir ölkəsi ilə rəqabət aparmağa, yarışa girməyə hazırdır".

> Ulu Öndərin fikrincə, hər hansı bir dövlətin inkişafı onun təhsilinin, elminin və mədəniyyətinin dünya standartları səviyyəsinə çatmasından asılıdır. Həssas bir sahə kimi təhsilin inkişafına qayğı göstərən Ulu Öndər Azərbaycanın orta və ali məktəblərində gənclərin gələcəyə hazırlanmasını diqqətə çəkirdi: " İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır.

Müstəqillik illərində bütün uşaqların oxuması üçün, təhsil verilməsi üçün məktəb şəbəkəsinin, ali məktəblərin mövcudluğunu, pedaqoji qabiliyyəti, bilik səviyyəsilə seçilən müəllim kollektivini xalqımızın sərvəti və nailiyyəti hesab edən Ulu Öndər demişdir: "Mən inanıram ki, biz indi müstəqil dövlət kimi heç kəsdən asılı olmayaraq, özümüz öz həyatımızın sahibi olaraq, bundan sonra məktəblərimizi daha da inkişaf etdirəcəyik.

Məktəbimiz həm dəqiq elmlərin mənimsənilməsində daha da inkişaf etməlidir, eyni zamanda, ictimai elmlər - Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan dili - bunların hamısı təhsilin çox vacib sahələridir.

Məktəb illəri hər bir insanın gələcək həyatında ən məsuliyyətli, ən əhəmiyyətli, ən dəyərli illərdir. Ona görə də, bizim övladlarımıza, balalarımıza, bu gün məktəbə qədəm qoyan uşaqlara, məktəbdə oxuyan bütün gənclərə, imtahan verib ali məktəblərə daxil olan tələbələrə tövsiyə edirəm ki, bu illərdən, günlərdən səmərəli istifadə edin, onları itirməyin. Dünən nə isə itirdiniz, bu gün onun yerini doldura bilməyəcəksiniz.

Respublikamızda ali təhsilin inkişafına sanballı töhfələr vermiş Azərbaycan Dövlət Neft Akademiyasının ölkə qarşısında böyük xidmətləri vardır.

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var".

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

**Son səhifə** **5 oktyabr**


## *Soyuqdəymə zamanı qəbul edilən çaylar*

Soyuqdəymə aşağı temperaturun, soyuğun orqanizmə təsiri nəticəsində yaranan haldır. Əslində xəstəliklər arasında onu xüsusi nozoloji vahid kimi ayırmasalar da, bir sıra infeksiyalar və iltihabın inkişafına təkan verir. Xüsusən də qrip, paraqrip, adenovirus, herpes, göyöskürək, stafilokok və pnevmokok infeksiyaları soyuqdəymə zamanı daha tez baş qaldırır. AZƏRTAC xəbər verir ki, soyuqdəymənin müalicəsində ən səmərəli üsullardan biri preparat, məlhəm və məcun deyil, bol isti maye qəbul edilməsidir.



Başqa fəsad verməyibsə, soyuqdəyməni ev şəraitində də müalicə etmək olar,-deyə həkim-fitoterapevt Esmira Zeynalova söyləyir. Çay və ya dəmləmənin çox içilməsi toksinləri orqanizmdən sürətlə xaric edir. Qəbul edilən maye vitaminlərlə zəngin olanda müalicə daha yaxşı səmərə verir.

Həkim-fitoterapevt soyuqdəymə çaylarından bir neçəsinin hazırlanma qaydası haqqında məlumat verib. Onun dediyinə görə, bu sahədə ən yaxşı üsullardan biri ballı-limonlu çaydır. Bunun üçün həm qara, həm də yaşıl çaydan istifadə etmək olar. Dəmləməyə bir az limon şirəsi və 1 çay qaşığı bal əlavə edilməsi onu C vitamini ilə zənginləşdirir, mikrob və iltihab əleyhinə təsir göstərir. Sadəcə olaraq limon şirəsi və bal qaynar deyil, bir qədər soyumuş çaya əlavə olunmalıdır.

Digər bir üsul moruqlu-cökəli çaydır. Çökə çiçəkləri üzərinə qaynar su tökülərək ağzı bağlı halda 5-10 dəqiqə dəmlənilməyə qoyulur. Həmin vaxt onun üzərinə moruq meyvələri və yarpaqları əlavə etmək olar. İçməzdən qabaq 1-2 çay qaşığı moruq mürəbbəsi əlavə olunması məsləhət görülür.

Zəncəfilli-limonlu çay da soyuqdəymə zamanı çox yaxşı fayda verir. Yarım çay qaşığı xırdalanmış zəncəfil kökləri, hərəsindən 1 xörək qaşığı limon şirəsi və bal, bir çimdik darçın qarışdırılır, üzərinə çox qaynar olmayan isti su əlavə edilir. Onun qəbulu orqanizmi isidir, tərlədir və mikroblarla mübarizəyə kömək edir.

Minerallı isti süd məhlulu yaxşı müalicəvi təsirə malikdir. Qələvi mineral suyun qapağı açılır və 1 saat ərzində tərkibində olan qazların xaric olması üçün gözlənilir. İnək südü isidilərək mineral su ilə yarıbayarı qarışdırılır. İlıq şəkildə içəndə bəlğəmi yumşaldaraq xaric olunmasını asanlaşdırır.

Həkim-fitoterapevtin dediyinə görə, çox yaxşı təsirə malik vasitələrdən biri sarımsaqlı süddür. Onu hazırlamaq üçün sarımsaq qabığından soyulur, əzilərək şirəsi çıxarılır. 1 stəkan isti südə 10 damcı şirə əlavə olunaraq gecə yatmazdan əvvəl içilməsi orqanizmə bakterisid və virus əleyhinə təsir göstərir.

Çuğundur şirəsindən hazırlanan çayın qəbulu da soyuqdəyməni aradan qaldırır. Çuğundur sürtgəcdən keçirilir, şirəsi sıxılır və gündə 3-4 dəfə 3 damcı burun dəliklərinə damızdırılır. Zökəmin müalicəsində ən yaxşı vasitələrdən hesab edilir.

Daha bir üsul itburnu çayının qəbuludur. Qurudulmuş itburnu meyvələri xırdalanır, 5 xörək qaşığı götürülərək termosda 1 litr qaynar suda dəmlənir, səhərdən başlayaraq 1 saat fasilə verməklə 1 stəkan içilir. Bunlardan başqa exinaseyalı və udi hindi məhlulu ilə hazırlanan çaylar da soyuqdəymə zamanı çox faydalı və təsirli müalicə üsullarından biridir.

## *2050-ci ildə Yaponiyada kosmik lift istifadəyə veriləcək*

Yaponiya 2050-ci ilədək ilk kosmik liftin tikintisini planlaşdırır. Layihəyə 2025-ci ildə start verilməsi nəzərdə tutulur. AZƏRTAC "vistanews.ru"ya istinadla xəbər verir ki, yapon mühəndislərinin sözlərinə görə, 2050-ci ildə arzu edən hər kəs Yerdən Marsa kosmik lift vasitəsilə gedə biləcək. Bir həftə ərzində sərnişinlər planetlərarası liftlə təxminən 36 min kilometr uçacaqlar. Lifti yaradacaq şirkətin rəsmi nümayəndələrinin bəyanatlarına görə, hazırda mühəndislər planetlərarası liftin kompüter modeli üzərində işləri demək olar ki, başa çatdırıblar. Kosmik lift Yerdən Marsa bir gedişdə 30 sərnişin apara bilər.

## "Azərbaycanda peşəkar boksçuların yetişməsinə kömək etməyə hazırıq"



"Ümumdünya Boks Şurası (WBC) dünyanın ən iri və tanınmış peşəkar boks federasiyasıdır. WBC hazırda 165 üzv ölkəni birləşdirir. Bu qurumun 55-ci Konvensiyasının Bakıda keçirilməsi xüsusi əhəmiyyət daşıyır". Bunu SİA-ya açıqlamasında gənclər və idman naziri Azad Rəhimov deyib.

Onun sözlərinə görə, məşhur boksçuların ölkəmizə gəlməsi dünyanın bütün peşəkar boks həvəskarlarının diqqətini Azərbaycana yönəldib: "Bütün dünyada peşəkar boksun çox sayda azarkeşi mövcuddur. Bununla yanaşı, Azərbaycanda keçirilən tədbirə sosial şəbəkələrdə də çox böyük maraq var. Bu günlərdə dünyada peşəkar boksu sevənlərin bütün diqqətləri Bakıdadır. Bu auditoriya da bizim üçün çox vacibdir". Nazir qeyd edib ki, Azərbaycanda da peşəkar boksçuların yetişdirilməsi diqqətdə saxlanılacaq: "Hazırda ökəmizdə peşəkar boks federasiyası qeydiyyatdan keçməyib. Ancaq bu idman növünə maraq çox böyükdür. Düşünürük ki, Azərbaycanda da peşəkar boksçular yetişməyə başlamalıdır. Bizim məşhur boksçularımız var ki, hazırda çıxış etmirlər. Onların öz karyeralarını peşəkar boksda davam etdirməsi yaxşı olar. Nazirlik olaraq Azərbaycanda peşəkar boksçuların yetişməsinə kömək etməyə hazırıq".




## Ramil Quliyev Avropanın ən yaxşı 3 atleti sırasında

Türkiyəni təmsil edən azərbaycanlı Ramil Quliyev Avropanın ən yaxşı kişi atleti adına namizədlərdən ibarət siyahıya düşüb. SİA-nın məlumatına görə, 27 yaşlı idmançı 2017-ci ilin ən yaxşı 3 atleti sırasında yer alıb. Digər namizədlər isə fransalı onnövçü Kevin Mayerlə almaniyalı nizə atıcısı Yohannes Fetteldir. Qeyd edək ki, Ramil Quliyev 2017-ci ildə Londonda keçirilmiş dünya çempionatında 200 metr məsafəyə qaçışda qızıl medal qazanıb. O, avqustda Birmingemdə təşkil edilən "Brilliant Liqa"da da qızıl medala sahib olmuşdu. Türkiyəni təmsil edən azərbaycanlı Ramil Quliyev Avropanın ən yaxşı kişi atleti adına namizədlərdən ibarət siyahıya düşüb. Digər namizədlər isə fransalı onnövçü Kevin Mayerlə almaniyalı nizə atıcısı Yohannes Fetteldir.

## Ronaldoya məxsus unikal "Qızıl top" replikası hərracda satılıb



"Real" komandasının və futbol üzrə Portuqaliya yığmasının hücumçusu Kriştiano Ronaldoya məxsus unikal "Qızıl top" replikası xeyriyyəçilik aksiyası çərçivəsində hərracda satılıb. SİA-nın məlumatına görə, hərracda bu replikanı alan şəxs İsrailin ən varlı adamlarından biri olan İdan Oferdir. O, Ronaldoya məxsus "Qızıl top" üçün 600 min avro ödəyib. Hərracdan əldə edilən bütün vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara kömək edən "Make-A-Wish" xeyriyyə fonduna köçürüləcək.




## "Qızıl top" mükafatına namizədlər kimdir?

Oktyabrın 9-da "France Football" jurnalı "Qızıl top-2017" mükafatına namizədlərin siyahısını dərc edəcək. "France Football" jurnalı xəbər verir ki, siyahıya 30 futbolçunun adı salınacaq. Onların sırasından futbol dünyasının ən nüfuzlu fərdi mükafatının sahibi seçiləcək. 1956-2009-cu illərdə "France Football" jurnalı dünyanın hər yerindən jurnalistlərin səsverməsinin nəticələrinə görə "Qızıl top"u ən yaxşı futbolçuya təqdim edib. 2010-2015-ci illərdə mükafat FIFA ilə birgə təqdim olunub. Lakin keçən ildən etibarən "France Football" jurnalı bu mükafatı tək təqdim etmək hüququnu bərpa edib. "Qızıl top"un hazırkı sahibi "Real" və Portuqaliya yığmasının hücumçusu Kriştianu Ronaldudur.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**